29 mart 2024 №23-24 (2089)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan və Türkiyə birgə tarixi film çəkəcək



Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) ilə Türkiyənin tanınmış film şirkətləri "Skala Film Prodüksiyon" və "Tulpar Film" arasında anlaşma memorandumu imzalanıb.

Memoranduma əsasən, yaxın vaxtlarda "Qızıl qatar" ("Altın tren") adlı birgə filmin istehsalı nəzərdə tutulur.

**_səh. 2_**

## Ölkəmiz ABŞ-də Oyun Tərtibatçıları Konfransında təmsil olunub



Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin birgə əməkdaşlığı çərçivəsində ölkəmizi təmsil edən oyun tərtibatçıları ABŞ-də keçirilmiş Oyun Tərtibatçıları Konfransında iştirak etmək hüququ qazanıblar.

Konfransda təmsilçilərimizə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin həyata keçirdiyi "Roadshow" layihəsi çərçivəsində dəstək göstərilib.

**_davamı səh. 2-də_**

## UNESCO-da Ənənəvi Geyim Günü



UNESCO İcraiyyə Şurasının 219-cu sessiyası (13–27 mart) başa çatıb. Sessiyanın son günü 27 mart – Ənənəvi Geyim Günü qeyd edilib. Təşkilata üzv ölkələrin bir çoxunun nümayəndələri, o cümlədən Azərbaycan Respublikasının UNESCO yanında Daimi Nümayəndəliyinin əməkdaşları İcraiyyə Şurasının son iclasına milli geyimlərdə qatılıblar.

Qeyd edək ki, bu təşəbbüs İndoneziya və Polşanın UNESCO yanında daimi nümayəndələri tərəfindən ortaq mədəni müxtəlifliyi və irsi, eləcə də qarşılıqlı anlaşmanın təbliği və təşviqi məqsədilə irəli sürülüb. Təşəbbüs digər üzv dövlətlər tərəfindən rəğbətlə qarşılanıb. Bu səbəbdən də UNESCO-nun iclasında ilk dəfə daimi nümayəndələr milli geyimdə iştirak ediblər.

# Baharlı yurddan dünyaya sənət baharı

### Hər il olduğu kimi, bu il də Novruz şənlikləri musiqimizlə, rəqslərimizlə süsləndi...

Milli-mənəvi irsimizin qədim yaddaşı və zəngin saxlancı olan Novruz bayramı sərhədləri bütöv Vətənimizin dörd bir yanında olduğu kimi, yurddaş və həmvətənlərimizin yaşadığı ölkələrdə də təmtəraqla qeyd olundu. Hər il olduğu kimi, bu il də Azərbaycanın xaricdəki səfirlikləri, mədəniyyət mərkəzləri dost ölkələrin diplomatik nümayəndəlikləri və diasporlarının iştirakı ilə keçirilən şənliklər musiqimizlə, rəqslərimizlə süsləndi...







2009-cu ildən Novruzu Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil etmiş UNESCO-da da bayram tədbiri keçirilib. Mərasim Azərbaycanın, eləcə də Novruzla bağlı çoxmillətli nominasiya faylında imzası olan Əfqanıstan, Qırğızıstan, Qazaxıstan, İran, İraq, Hindistan, Özbəkistan, Pakistan, Türkiyə, Türkmənistan və Tacikistanın UNESCO yanında daimi nümayəndəliklərinin birgə təşkilatçılığı ilə keçirilib. UNESCO-nun baş direktorunun müavini Sin Ku tədbir iştirakçılarını təbrik edib. Novruz bayramının sülh, həmrəylik kimi ümumbəşəri dəyərləri əks etdirdiyi, nəsildən-nəslə ötürülən milli mənsubiyyət nümunəsi olduğu vurğulanıb.

Təşkilatçı ölkələrin sənətçiləri milli musiqi və rəqs nümunələri ifa ediblər. Parisdə yaşayan azərbaycanlı Səddam Novruzbəyov (klarnet) və Neset Kutas (nağara) "Sarı gəlin" Azərbaycan xalq mahnısını, "Novruz gəlir, yaz gəlir", "Maralı" və "Qazaxı" rəqs havalarını səsləndiriblər.

Azərbaycanın UNESCO yanındakı daimi nümayəndəsi Elman Abdullayev qonaqlara ölkəmizdə Novruz bayramının keçirilməsi ənənələri haqqında məlumat verib.

***

Strasburqda Avropa Şurası yanında daimi nümayəndəliyimiz də UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının dəstəyi ilə bayram konserti təşkil edib. Daimi nümayəndə Fəxrəddin İsmayılov Novruz bayramı və xalqımızın milli-mədəni irsi barədə söz açıb. 2009-cu ildə isə Novruzun UNESCO-nun siyahına salındığı, 2010-cu ildə BMT Baş Assambleyasının 21 mart – Beynəlxalq Novruz Günü ilə bağlı qətnamə qəbul etdiyi xatırladılıb.

Strasburqun "Bayramlar Sarayı"na toplaşan qonaqlara Montrö Caz Festivalının mükafatçısı Əməkdar artist Emil Əfrasiyab (fortepiano), Xalq artisti Ənvər Sadıqov (qarmon), Əməkdar artistlər Ələkbər Ələkbərov (tar), İsgəndər Ələsgərov (zərb alətləri) və istedadlı gənc Elvin Nəbiyevin (bas-gitara) ifasında etno-caz musiqi proqramı təqdim olunub.

***

Baharlı yurddan sənət sovqatlı Novruz havası Avropanın ən şimal ölkəsi Norveçə də gedib çıxıb. Norveçin paytaxtı Osloda "Zəfərin ilk baharı" adlı tədbir keçirilib.

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Beynəlxalq Muğam Mərkəzi (BMM), Norveç Azərbaycanlıları Gənclər Təşkilatı (NAYO) və Oslo Azərbaycan Evinin dəstəyi ilə keçirilən tədbirdə Nizami Gəncəvi adına "Azərbaycan dili" həftəsonu məktəbinin şagirdləri və onların valideynləri Vətənə, Novruz bayramına həsr edilmiş şeirlər səsləndirib, Novruzun rəmzi olan Bahar qızı tədbir iştirakçılarının bayramını təbrik edib.

Konsertdə BMM-in solistləri, xanəndələr Mirələm Mirələmov və Kamilə Nəbiyevanın ifaları tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

**_mövzunun davamı səh. 4-5-də_**

## "Teatr və sülh mədəniyyəti"

27 mart hər il Dünya Teatr Günü (World Theatre Day) kimi qeyd edilir. Bu gün UNESCO nəzdində fəaliyyət göstərən Beynəlxalq Teatr İnstitutunun (International Theatre Institute – ITI) 1961-ci ildə Vyanada keçirilən IX konqresində təsis edilib.




Hər il əlamətdar gün münasibətilə görkəmli teatr xadimləri, dramaturqlar ictimaiyyətə müraciət ünvanlayaraq teatr sənətinin mədəni həyat və ümumilikdə insanlıq, bəşəriyyət üçün əhəmiyyətini diqqətə çatdırırlar.

2024-cü il üçün Dünya Teatr Gününün mövzusu "Teatr və sülh mədəniyyəti" müəyyən edilib. Bu münasibətlə UNESCO-nun himayəsi və Beynəlxalq Teatr İnstitutunun iştirakı ilə əsas tədbir 27–29 mart tarixlərində Çinin Langfang şəhərində keçirilir.

"Teatr və sülh mədəniyyəti" mövzusunda mesajın müəllifi isə Norveç yazıçı-dramaturqu, 2023-cü ilin ədəbiyyat üzrə Nobel mükafatı laureatı Jon Fosse seçilib. Onun müraciəti Beynəlxalq Teatr İnstitutunun rəsmi saytında müxtəlif dillərdə yayımlanıb.

**_davamı səh. 3-də_**

# Əsrin qan yaddaşı...

### Mart qırğınlarının 106-cı ildönümü

1918-ci il martın son günləri Azərbaycan tarixinin ən qanlı dövrlərindən biridir. Həmin günlər erməni silahlı dəstələri Bakıda misli görünməyən qırğın törətmişdi. Şaumyanın rəhbərlik etdiyi "Bakı Soveti"nin daşnak-bolşevik hərbi qüvvələrinin müsəlman azərbaycanlıların "sovet hakimiyyətinə qarşı çıxması" bəhanəsi ilə 30 martda başlatdığı qətliam aprelin 1-dək davam etmiş, üç gün ərzində Bakıda və ətraf kəndlərdə 10 mindən çox insan öldürülmüşdü. Daşnak-bolşevik qüvvələri Təzəpir məscidini topa tutmuş, Bakının memarlıq incilərindən sayılan "İsmailiyyə" binasına od vurmuş, şəhərin böyük bir hissəsini xarabalığa çevirmişdi.



Kütləvi qırğınlar Qarabağın azərbaycanlı kəndlərində, Şuşada, eləcə də aprel-may aylarında Şamaxıda, Qubada, Lənkəranda, Gəncəbasarda və başqa bölgələrdə davam etmiş, 30 mindən çox müsəlman-türk, habelə erməni quldurlarına boyun əyməyən digər millətlər – ləzgilər, talışlar, yəhudilər (Quba), almanlar (Gəncəbasar bölgəsi) qətlə yetirilmişdi.

70 illik sovet ideologiyasının "erməni-müsəlman davası", "əks-inqilabi qiyam" kimi saxtalaşdırdığı 1918-ci ilin Mart hadisələri bolşevik-daşnak ittifaqının xalqımıza qarşı yeritdiyi soyqırımı siyasəti idi. Bu qırğının təşkilatçısı Şaumyan 13 aprel 1918-ci ildə Leninə yazırdı: "Biz artıq 6 min nəfərlik silahlı qüvvəyə malik idik. Daşnakların da 3-4 min nəfərlik silahlı hissələri var idi ki, o da bizim sərəncamımızda idi... Biz bu işə şüurlu surətdə getdik. Əgər azərbaycanlılar üstün gəlsəydi, onda Bakı Azərbaycanın paytaxtı elan edilə bilərdi".

Göründüyü kimi, azərbaycanlılara qarşı genosid həyata keçirən ermənilər Bakı da daxil bütün Azərbaycanı özlərinin ərazisi etmək əzmində idilər. 1918-ci il iyulun 15-də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin hələ Gəncədə ikən yaratdığı Fövqəladə Təhqiqat Komissiyası bu qətliamlarla bağlı çoxsaylı materiallar toplamışdı. Bir il sonra, 1919-cu ildə Cümhuriyyət Parlamenti 31 martın "Azərbaycanlıların Soyqırımı Günü" kimi qeyd olunması barədə qərar qəbul etdi.

Dünya ictimaiyyətinə həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılmışdı. Lakin Cümhuriyyətin süqutu bu işin başa çatmasına imkan vermədi...

Azərbaycanda 70 illik sovet tarixi bizi gerçək tarixdən uzaq saldı. Hətta soyqırımı qurbanı olmuş soydaşlarımızın uyuduğu qəbiristanlığın üstünü betonlayaraq burada Kirovun heykəlini qoymuş, ətrafda da istirahət parkı salmışdılar...

1998-ci il martın 26-da Prezident Heydər Əliyev tariximizin qan yaddaşı ilə bağlı fərman imzaladı. İki əsr (XIX-XX) azərbaycanlılara qarşı törədilmiş qırğın və deportasiya əməllərinə siyasi qiymət verən sənədlə 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi yenidən tariximizdə öz yerini tapdı.

Ötən dövr ərzində tarixi gerçəklərin, xalqımızın iki əsr boyu məruz qaldığı soyqırımı və etnik təmizləmənin dəhşətli miqyasını beynəlxalq aləmə çatdırmaq üçün xeyli iş görülüb. Amma hələ daha çox iş görməliyik. Çünki hələ də tarixi gerçəklərə qulaq tıxayan dünyanın bir sıra yerlərində ermənilərin saxta "tarixi" ayaq açıb gəzə bilir...



"Muzeydə musiqi" layihəsində daha bir konsert

**_səh. 3_**



"Xalqın mədəni sərvəti" – Cabbar Qaryağdıoğlu

**_səh. 4_**



Milli Dram Teatrı "Xanuma" ilə Şəkidə qonaq olub

**_səh. 5_**

№23-24 (2089)
29 mart 2024
www.medeniyyet.az

# Mədəniyyət naziri İmişlidə vətəndaşları qəbul edəcək

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli tərəfindən aprelin 19-u saat 10:00-da İmişli rayonu Heydər Əliyev Mərkəzində (20 Yanvar küçəsi 2) Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonlarından olan vətəndaşların qəbulu keçiriləcək.

Vətəndaşlar 16 aprel tarixinədək Mil-Muğan Regional Mədəniyyət İdarəsinin mil-mughan@culture.gov.az elektron poçt ünvanı, (021) 235-63-97 telefon nömrəsi vasitəsilə müraciət etməklə qəbula yazıla bilərlər.

# Ölkəmiz ABŞ-də Oyun Tərtibatçıları Konfransında təmsil olunub

*əvvəli səh. 1-də*



Oyun sənayesi sahəsinin mədəniyyət və yaradıcı sənayelərin önəmli klasterlərindən olduğu nəzərə alınaraq, eyni zamanda "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın müvafiq bəndinin icrası ilə əlaqədar Mədəniyyət Nazirliyi də sözügedən tədbirdə təmsil olunub.

Mart ayında San-Fransisko şəhərində keçirilən konfransda (Game Developers Conference) ölkəmizdən 4 oyun studiyası ("Dynamic Box", "Cool Bears", "Darts Games", "AzDimension") və 1 oyun inkubasiya mərkəzi ("Gamepons") iştirak edib.

"Gametech" Azərbaycanda yeni investisiyaları cəlb etməyə, hekayələr, qrafik dizayn və animasiya kimi sahələrdə çalışan mütəxəssislərin təkmilləşməsinə, mədəni irsin tanıdılmasına və qeyri-neft sektorunun şaxələndirilməsinə təkan verir.

# "Qızıl qatar" – Azərbaycan və Türkiyə birgə tarixi film çəkəcək

Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) ilə Türkiyənin tanınmış film şirkətləri "Skala Film Prodüksiyon" və "Tulpar Film" arasında anlaşma memorandumu imzalanıb.

Agentlikdən bildirilib ki, memoranduma əsasən, yaxın vaxtlarda "Qızıl qatar" ("Altın tren") adlı birgə filmin istehsalı nəzərdə tutulur.

Filmin istehsalı istiqamətində birgə fəaliyyətləri müəyyən edən üçtərəfli anlaşma memorandumu Azərbaycan tərəfdən ARKA-nın baş direktoru vəzifəsini icra edən Orxan Fikrətoğlu imzalayıb.

Çəkilişlərinin Azərbaycanda aparılması planlaşdırılan filmin mövzusu XX əsrin əvvəllərində Türkiyə və Azərbaycanın əlaqələrindən bəhs edir. 1918-ci ildə Nuru paşanın komandanlığı ilə Osmanlı ordusunun Azərbaycan Xalq Cümhuriyyətinə köməyə gəlməsi, həmçinin Azərbaycandan qardaş Türkiyəyə qızıl yüklü vaqonların göndərilməsi filmin əsas süjet xəttini təşkil edir.

Qeyd edək ki, Türkiyə şirkətləri tərəfindən ilk dəfə olaraq Azərbaycanın kino sənayesinə investisiya yatırılır. Filmin maliyyə tərəfi qardaş ölkənin istehsalçıları tərəfindən həyata keçiriləcək. Memorandumda TÜRKSOY-a üzv ölkələrdən dəstək alınması da əksini tapıb.

# "Kinematoqrafiya haqqında" qanun yenilənəcək

## İşçi qrupu yaradılıb

Azərbaycan Respublikasının Kino Agentliyində (ARKA) "Kinematoqrafiya haqqında" qanunun təkmilləşdirilməsi və yenilənməsi məqsədilə işçi qrupu fəaliyyətə başlayır.

Agentlikdən bildirilib ki, işçi qrupu kino xadimləri və kinematoqrafiya sahəsində fəaliyyət göstərən mütəxəssislər tərəfindən ötən ilin aprelində keçirilən Kino Forumunda, eləcə də müxtəlif tədbirlərdə səsləndirilən təkliflərin təhlili, ümumiləşdirilməsi və hüquqi bazasının yaradılması istiqamətində işlər aparacaq.

Mərhələli şəkildə həyata keçiriləcək fəaliyyət proqramı çərçivəsində kino xadimlərinin, təcrübəli mütəxəssislərin və hüquqşünasların da işçi qrupuna cəlb olunması, uğurlu hesab olunan dünya ölkələrinin təcrübəsinin öyrənilməsi planlaşdırılır. "Kinematoqrafiya haqqında" qanunun yenilənməsi üçün geniş kino ictimaiyyətinin rəyinin öyrənilməsi və bununla bağlı müzakirələrin aparılması nəzərdə tutulur.

# Əməkdar artist Rahib Əliyev dünyasını dəyişib

Azərbaycan mədəniyyətinə itki üz verib. Tanınmış teatr və kino aktyoru, Əməkdar artist Rahib Əliyev 28 mart 2024-cü il tarixində, 79 yaşında vəfat edib.

Rahib Seyidağa oğlu Əliyev 12 iyul 1945-ci ildə Bakı şəhərində anadan olub. Məktəbli illərindən dram dərnəklərində fəaliyyət göstərib, xalq teatrlarında səhnəyə çıxıb.

Rahib Əliyev 1965-ci ildə M.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun Dram və kino aktyorluğu fakültəsinə daxil olub. Tələbə ikən, 1968-ci ildə Gənc Tamaşaçılar Teatrında aktyor kimi işə başlayıb.



Ömrünün sonunadək bu sənət ocağında çalışan aktyor ümumilikdə 70-dən artıq obraza həyat verib. Sənətkarın Markone ("Ovod" – E.Voyniç), Fərzəli bəy ("Nəsrəddin" – Y.Əzimzadə), Qazı ("Danabaş kəndinin məktəbi" – C.Məmmədquluzadə), Bəkdəmirov ("Şirinbala bal yığır" – S.Qədirzadə), Cəbi ("Hacı Qəmbər" – N.Vəzirov), Mirzə Salman ("Mahmud və Məryəm" – Elçin), Babaşov ("Sağlıq olsun" – İ.Məlikzadə), Molla Xudaverdi, Kərəməli ("Hacı Qara" – M.F.Axundzadə), Fərəcov ("Sən həmişə mənimləsən" – İ.Əfəndiyev), Ancelo, Mer ("Səhvlər komediyası", "III Riçard" – V.Şekspir), Şeyx Əbuzər ("Şeyx Sənan" – H.Cavid), Mister Sauyrberi ("Oliver Tvistin macəraları" – Ç.Dikkens) və s. obrazları tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Rahib Əliyev səhnə xadimi kimi tanınsa da, 10-dan artıq filmdə də ("Ulduzlar sönmür", "Yol əhvalatı", "Yaramaz", "Qətl günü", "Güllələnmə təxirə salınır!", "Cavid ömrü", "Axırıncı dayanacaq" və s.) çəkilib.

Sənətkar 2006-cı ildə "Əməkdar artist" fəxri adına, 2018-ci ildə "Tərəqqi" medalına layiq görülüb. Dəfələrlə Prezident mükafatçısı olub.

Allah rəhmət eləsin.

# "Bir ömrün simfoniyası"

## Rostropoviçlərin ev-muzeyində klassik musiqi axşamı

Dünyaşöhrətli musiqiçi, violonçel ifaçısı, dirijor Mstislav Rostropoviçin (1927–2007) anadan olmasının 97-ci ildönümü münasibətilə martın 27-də Leopold və Mstislav Rostropoviçlərin Ev-Muzeyində "Bir ömrün simfoniyası" adlı klassik musiqi axşamı təşkil olunub.

Tədbirdə Azərbaycan Bəstəkarlar İttifaqının sədri Xalq artisti, professor Firəngiz Əlizadə, tanınmış incəsənət xadimləri, Rusiyanın ölkəmizdəki səfirliyinin nümayəndələri, digər qonaqlar iştirak ediblər.

Muzeyin direktor vəzifəsini icra edən Günay Əliyeva qonaqları salamlayıb.

Xalq artisti Firəngiz Əlizadə maestro haqqında xatirələrini bölüşüb, dahi musiqiçi ilə yaradıcılıq əlaqələrindən söhbət açıb.

Tədbirdə çıxış edən Rusiya səfirliyinin müşavir-elçisi Pyotr Volokovıx rəssam Natalya Şevçenkonun M.Rostropoviçə həsr etdiyi portreti muzeyə təqdim edib, rəsm əsərinin yaranması barədə danışıb.

Əməkdar müəllim, violonçel ifaçısı Kamal Paşazadə və Əməkdar incəsənət xadimi, kinorejissor Ziya Şıxlınski də Mstislav Rostropoviç ilə bağlı xatirələrini bölüşüblər.



Konsert proqramında respublika və beynəlxalq müsabiqələr laureatları M.Tağıyev, V.Qurbanov, K.Talıblı və başqaları Azərbaycan və dünya klassiklərinin əsərlərini ifa ediblər. Qonaqlar konsertdən böyük zövq aldıqlarını bildiriblər.

# Niyazinin ocağında tanınmış violin ifaçısı ilə görüş

Martın 28-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Niyazinin Mənzil-Muzeyində tanınmış violin ifaçısı, Əməkdar artist Arif Manaflı ilə görüş və "Sənətin Arifi" kitabının təqdimat mərasimi keçirildi.

Tədbiri Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru sənətşünaslıq elmləri doktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova açaraq Arif Manaflının sənət yolundan, ifaçı kadrların hazırlanmasında əməyindən danışdı.

Muzeyin şöbə müdiri Xanım Abdinova sənətkarın həyat və yaradıcılıq yolundan söz açdı. Diqqətə çatdırdı ki, A.Manaflı erkən çağlardan musiqiyə maraq göstərib. Onun qəlblərə süzülən özünəməxsus ifası dinləyicilər tərəfindən maraqla qarşılanır.




Tədbirdə daha sonra Xalq artistləri Sərdar Fərəcov, Azər Dadaşov, Əməkdar müəllim Adilə Yusifova, Əməkdar incəsənət xadimi Məmmədağa Umudov, sənətşünaslıq üzrə fəlsəfə doktoru Fəttah Xalıqzadə çıxış edərək A.Manaflının Azərbaycan və Türkiyə musiqi mədəniyyətinin inkişafındakı roluna və yaradıcılıq portretinə nəzər saldılar. Bildirildi ki, o, Türkiyədə Azərbaycan bəstəkarları ilə yanaşı, xalq musiqisi nümunələrinin də təbliğinə töhfələr verib.

Muzeyin direktoru Alla Bayramova Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin nəşrləri olan not kitablarını A.Manaflıya hədiyyə etdi. O da öz növbəsində ifaları olan CD-ləri, yaradıcılığını əks etdirən afişa və fotoşəkilləri muzeyə bağışladı.

Tədbir iştirakçılarının suallarını cavablandıran A.Manaflı Azərbaycan bəstəkarları ilə yaradıcılıq əlaqələrindən danışdı, maestro Niyazi haqqında xatirələrini bölüşdü. Kitabın müəllifi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Fazilə Nəbiyeva nəşrin ərsəyə gəlməsindən bəhs etdi.

Çıxışlar A.Manaflının yaradıcılıq yolunu əks etdirən slaydşou ilə müşayiət olundu.

Sonda sənətkarın ifalarının videoyazıları nümayiş olundu. F.Əmirov adına 11 illik İncəsənət məktəbi şagirdlərinin ifasında musiqi proqramı təqdim edildi.

**S.Fərəcov**

# Gənc ifaçıların Opera festivalı keçiriləcək

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, Xalq artisti Fidan Hacıyevanın təşəbbüsü ilə aprelin 27-dən mayın 3-dək gənc ifaçıların Opera festivalı keçiriləcək. Festivalda 14 yaşadək ifaçılar iştirak edəcəklər.

Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalında iştirakçılar üçün məşq təşkil olunub.

Xalq artisti Fidan Hacıyevanın sözlərinə görə, Azərbaycan və xarici bəstəkarların əsərlərinin daxil edildiyi canlı proqram hazırlanıb. Gənc ifaçılar həm xorun tərkibində, həm də solo ifaçısı kimi səhnəyə çıxacaqlar.

Aprelin 29-da "Fidan Hacıyeva vokal musiqi məktəbi"ndə və Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında "Mezzo" qadın kamera orkestrinin (konsertmeyster Kübra Rzayeva) müşayiəti ilə gənc istedadların konserti keçiriləcək.

Tədbirdə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin və paytaxtın digər musiqi məktəblərinin, "Aybəniz Haşımovanın incəsənət akademiyası"nın şagirdləri, Azərbaycan Beynəlxalq Məktəbinin (TISA) uşaq xoru, "Big Ben Kids Academy" uşaq xoru iştirak edəcək.

# Ermənistanın Avropadakı "dostları" regionda düşmənçiliyi körükləyir

Danimarkanın keçmiş baş naziri, habelə NATO-nun keçmiş baş katibi olmuş Anders Foq Rasmussenin rəhbərlik etdiyi "Ermənistanın dostları şəbəkəsi" adlı qrup tərəfindən hazırlanmış hesabatda yer alan Azərbaycan əleyhinə əsassız iddiaları qətiyyətlə pisləyir və rədd edirik.

Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadənin Anders Foq Rasmussenin rəhbərlik etdiyi qrupun hesabatına dair şərhində yer alıb.

Qeyd edək ki, 2024-cü il 21 mart tarixli hesabat "Avropa İttifaqı-Ermənistan münasibətlərinin dərinləşməsi: Ermənistanda daha çox Avropa; Avropada daha çox Ermənistan" adlanır.

A.Hacızadə qeyd edib ki, hesabatda bütün faktların təhrif olunduğu, böhtan xarakterli və tamamilə əsassız müddəalar Azərbaycan əleyhinə aparılan qarayaxma kampaniyasının tərkib hissəsidir. Bu müddəalar Ermənistanla Avropa İttifaqı arasında münasibətlərin dərinləşdirilməsinə yönəldiyi iddia olunan sözügedən hesabatla bağlı ciddi suallar doğurur. Əslində, bu, absurd təbliğatdan başqa bir şey deyil.

Bundan əlavə, hesabatın ermənipərəst hekayələrin təbliğatı məqsədilə Ermənistan hökuməti ilə gəlirli sövdələşməyə uyğun olaraq hərəkət edən sözügedən erməni lobbi qrupu tərəfindən aprelin 5-də keçiriləcək ABŞ-Avropa İttifaqı-Ermənistan üçtərəfli konfransı ərəfəsində ictimaiyyətə açıqlanması sözügedən hesabatın və onu imzalayan sabiq rəsmilərin əsl niyyətlərini üzə çıxarır. Açıq mənbələrdən əldə edilən maliyyə sənədləri sübut edir ki, Anders Rasmussen öz lobbi şirkəti "RasmussenGlobal"ı tanıtmaq və şübhəli lobbiçilik və təsir xidmətləri göstərmək üçün NATO-nun keçmiş baş katibi statusundan sui-istifadəyə davam edir. Ermənistan hökuməti onun müştərisi kimi "çox düşünülmədən təsdiqlənmiş" bu hesabata görə yüz minlərlə dollar xərcləyib.

"Maraqlıdır ki, Azərbaycanın Ermənistanın ərazi bütövlüyü və suverenliyinə təhdid törətməkdə ittiham olunduğu bu hesabatın həmmüəlliflərindən bəziləri böyük şövqlə müdafiə etdikləri Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən işğal və etnik təmizləmənin birbaşa şahidi olublar.

Ermənistan hökumətinin maliyyələşdirdiyi təbliğat kampaniyaları Ermənistan tərəfinin regional sülh gündəmi ilə bağlı səmimi olmadığını bir daha nümayiş etdirir. Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi Avropa təsisatları da daxil olmaqla, müəyyən dardüşüncəli siyasətçilər vasitəsilə bahalı və mənasız böhtan kampaniyalarının aparılması regional sabitliyə və sülh quruculuğu səylərinə xidmət etmir", – deyə XİN rəsmisi vurğulayıb.

# İnsanlıq tarixinin qanlı səhifəsi



Azərbaycan Universitetinin bir qrup müəllim və tələbəsi Quba şəhərində yerləşən Soyqırımı Memorial Kompleksini ziyarət edib. 31 mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar təşkil olunan səfər çərçivəsində kompleksin informasiya mərkəzində elmi seminar keçirilib.

Elmi seminarda kompleksin direktor müavini Mehriban Əliyeva, kompleksin mütəxəssisi tarix üzrə fəlsəfə doktoru, dosent Sübhan Talıblı, Azərbaycan Universiteti Siyasi və ictimai elmlər kafedrasının müəllimləri, tarix üzrə fəlsəfə doktorları Rəsul Mehdixanov, Səbinə Məmmədli, Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialının müəllimi tarix üzrə fəlsəfə doktoru Təhminə Əliyeva və başqaları çıxış ediblər.

Sonra müəllim və tələbə heyəti tərəfindən simvolik məzarlıqda Qubanın rəmzi olan alma ağacları əkilib, faciə qurbanlarının xatirəsinə hörmət əlaməti olaraq 40 mərmər daşı yerləşdirilib. Soyqırımı muzeyində material və faktlarla tanışlıq olub.

***




Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) təhsil alan əcnəbi tələbələr də Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Quba rayonuna səfər ediblər. Onlara 1918-ci ildə baş verən qanlı hadisələr barədə tarixi sənədlər və faktlar əsasında ətraflı məlumat verilib. Bildirilib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan memorial kompleks 2013-cü il sentyabrın 18-də açılıb. Burada quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritə vasitəsilə ermənilərin xalqımıza qarşı həyata keçirdikləri soyqırımı aktları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür.

# Azərbaycanla UNESCO arasında əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycan Respublikasının mədəniyyət nazirinin müavini Fərid Cəfərovun rəhbərlik etdiyi nümayəndə heyəti Parisdə – UNESCO-nun mənzil-qərargahında qurumun rəhbər vəzifəli şəxsləri ilə görüşlər keçirib.



Martın 21-də UNESCO Baş Konfransının prezidenti xanım Simona Mikulesku və İcraiyyə Şurasının sədri xanım Vera Lakulye ilə keçirilən görüşlərdə Azərbaycanın ümumbəşəri mədəni irsin qorunması üzrə milli, regional və beynəlxalq səviyyələrdə fəaliyyətinə dair müzakirələr aparılıb.

Bu xüsusda Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə xalqımızın zəngin maddi və qeyri-maddi mədəni irsinin qorunması, təbliği sahəsində əldə olunan nailiyyətlərdən bəhs edilib. Həmçinin dövlətimizin başçısının təşəbbüsü ilə 2008-ci ildən etibarən başladılan "Bakı Prosesi" qlobal platformasının mədəniyyətlərarası dialoqun təşviqi vasitəsilə beynəlxalq səviyyədə sülh və təhlükəsizliyə xüsusi töhfə verdiyi qeyd edilib. Bu çərçivədə Azərbaycanın Dünya Mədəniyyətlərarası Dialoq Forumuna beş dəfə (2011, 2013, 2015, 2017, 2019) ev sahibliyi etməsi UNESCO rəsmiləri tərəfindən yüksək qiymətləndirilib və bu il 1–3 may tarixlərində keçirilməsi nəzərdə tutulan VI Foruma dəstək ifadə olunub.

Martın 22-də təşkilatın baş direktorunun sosial və humanitar elmlər üzrə müavini xanım Qabriela Ramos və baş direktorun Prioritet Afrika və xarici əlaqələr üzrə müavini Entoni Ohemeng-Boama ilə keçirilən görüşlərdə UNESCO-Azərbaycan əməkdaşlığı barədə fikir mübadiləsi olub.

Bu çərçivədə ölkəmizin UNESCO-nun irimiqyaslı tədbir və layihələrinin, o cümlədən Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitənin 8-ci sessiyasının (2013), Dünya İrs Komitəsinin 43-cü sessiyasının (2019), MİNEPS – İdman Nazirlərinin VII Görüşünün (2023) və Mədəniyyətlərarası Dialoq forumlarının (2011–2019) təşkilatçısı və təşəbbüskarı qismində fəaliyyəti xüsusi təqdir edilib. Azərbaycanın Afrika ölkələrinə və inkişaf etməkdə olan kiçik ada dövlətlərinə verdiyi dəstəyin böyük əhəmiyyət daşıdığı vurğulanıb.

Görüşlərdə həmçinin UNESCO-nun İpək Yolları Proqramı, elmi araşdırmalar və nəşrlər üzrə əməkdaşlıq kimi istiqamətlər də nəzərdən keçirilib.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində tarix-mədəniyyət abidələrinin bərpası istiqamətində fəaliyyəti, eyni zamanda işğal dövründə dağıdılmış və talan edilmiş mədəni irsimizlə bağlı UNESCO mexanizmləri çərçivəsində fəaliyyətlər diqqətə çatdırılıb.

Söhbətlər zamanı Bakıda keçirilməsi nəzərdə tutulan BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ətrafında da fikir mübadiləsi aparılıb.

# "Teatr və sülh mədəniyyəti"

## Dünya Teatr Gününün builki mövzusu

əvvəli səh. 1-də

Müraciətdə deyilir: "İncəsənət, yaxşı sənət tamamilə unikal olanı universalla birləşdirməyi gözəl şəkildə bacarır. Bu, bizə nəyin fərqli, nəyin universal olanı olduğunu başa düşməyə imkan verir. Bununla da sənət dilləri, coğrafi bölgələri, ölkələri birləşdirir. Bu, təkcə hər kəsin fərdi keyfiyyətlərini deyil, həm də hər bir xalqın fərdi xüsusiyyətlərini ifadə edir. İncəsənət bunu fərqləri bərabərləşdirmək və hər şeyi eyniləşdirməklə deyil, əksinə, bizdən nəyin fərqli olduğunu, nəyin yad olduğunu göstərməklə ehtiva edir... Müharibələr, münaqişələr, terror hamımızın dərinliklərində olan şeylərə qarşı döyüşdür. Və o sənətə də qarşı, bütün sənətin dərinliklərində olanlara qarşı döyüşdür. Mən burada konkret olaraq teatrdan və ya dramaturqluqdan deyil, ümumiyyətlə, sənətdən danışıram... Müharibə və sənət bir-birinə zidd olduğu kimi, müharibə və sülh də bir-birinə ziddir – bu qədər sadədir. Sənət sülhdür".

***

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) da Dünya Teatr Günü münasibətilə müraciət yayıb.

ICESCO-nun saytında yayımlanan müraciətdə deyilir: "Hər il martın 27-də teatr sənətinin bir ilham mənbəyi kimi dünyada incəsənətin mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviqində rolunu, müxtəlifliyi və bəşər tarixinə mədəni təsirini təşviq edən, habelə onun qeyri-maddi sivilizasiya irsinin ayrılmaz hissəsi olduğunu vurğulayan Dünya Teatr Günü qeyd edilir. İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı bu fürsətdən istifadə edərək, teatr sənətini dəstəkləmək, mədəni dialoqu təşviq etmək və təşkilata üzv dövlətlərdə teatr artistlərinin bacarıqlarını inkişaf etdirmək öhdəliyini təzələyir. Təşkilat eyni zamanda, elmi nəşrlər və simpoziumlar vasitəsilə, xüsusən də süni intellektin yaratdığı problemlər və onun insan yaradıcılığının azaldılmasına təsiri fonunda əcdadların mirası olan bu vacib sənətin rolunun gücləndirilməsi istiqamətində göstərilən səyləri vurğulamağa çalışır".

Müraciətdə o da diqqətə çatdırılır ki, ICESCO İslam dünyasında teatrın mədəni kimliyini möhkəmləndirməyə yönəlmiş bir sıra bələdçi nəşrləri, habelə məktəblilər üçün bədii və teatr təhsili üzrə rəhbər tədqiqatın hazırlanması üzərində işləyir. Həmçinin vurğulanır ki, ICESCO bu sənət növünü inkişaf etdirmək, artistlərin hazırlanmasını təşviq etmək və səhnə sənətini qoruyub saxlamaq üçün üzv dövlətlərinin səylərini dəstəklədiyini bir daha təsdiqləyir.

***

Əlamətdar haldır ki, Azərbaycanda Milli Teatr Günü də Dünya Teatr Günü ilə eyni aya (10 mart) təsadüf edir. Bu il yaranmasının 151-ci ildönümü tamam olan peşəkar milli teatr sənəti zəngin inkişaf yolu keçib. Milli folklorumuzdan, meydan tamaşa-ayinlərindən qaynaqlanan teatr ənənələrinin ölkəmizdə tarixi isə uzun əsrlər öncəyə gedib çıxır. 1873-cü ilin martında Bakıda M.F.Axundzadənin "Lənkəran xanının vəziri" və "Hacı Qara" komediyalarının tamaşaya qoyulması ilə Azərbaycanda, eləcə də bütün müsəlman Şərqində dünyəvi, peşəkar teatrın təməli qoyulub.

# Teatrlar arasında memorandum imzalanıb

27 mart – Dünya Teatr Günündə Gəncə Dövlət Dram Teatrı ilə Ruminiyanın Craiova şəhər "Marin Sorescu" Milli Teatrı arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

Bu barədə Gəncə Dövlət Dram Teatrından məlumat verilib. Memorandumu hər iki teatrın direktorları Aqil Bəhramlı və Aleksandr Boureanu imzalayıblar.

İmzalanma mərasimində Ruminiyanın Azərbaycandakı səfiri Vasile Soare də iştirak edib.

Sənəddə qarşılıqlı səfərlərin, ustad dərslərinin təşkili və bu kimi yaradıcılıq mübadilələri nəzərdə tutulub.

# Dünya Teatr Günündə "Dovşanın ad günü"

Dünya Teatr Günü ilə bağlı daha bir tədbir Azərbaycan Dövlət Kukla Teatrında keçirilib.

Martın 27-də teatrın sosial-mədəni layihələri çərçivəsində 200 nəfərə yaxın əlilliyi olan uşaq və yeniyetmələr üçün sənət ocağının son premyerası – "Dovşanın ad günü" tamaşası göstərilib. Sonra balacalara hədiyyələr təqdim olunub.

Tamaşa uşaq ədəbiyyatımızın görkəmli nümayəndəsi Xanımana Əlibəylinin "Dovşanın ad günü" nağıl-poeması əsasında ərsəyə gəlib. Bədii nümunənin səhnələşdirmə və quruluş müəllifi Saida Haqverdiyeva, quruluşçu rəssamı Rəna Abasova, bəstəkarı Əməkdar artist Vüqar Camalzadə, mahnıların mətn müəllifi Sevinc Nuruqızıdır.

Tamaşada hadisələr bir meşədə təsvir olunur. Canavar Dovşanı yemək üçün nə qədər cəhd göstərsə də, buna nail ola bilmir. Günlərin bir günü meşəyə soraq yayılır ki, Dovşanın ad günü olacaq. Bunu eşidən Canavar Tülkü ilə hiylə qurub Dovşanın ad gününü gözləyirlər. Dovşan, Kirpi, Alabaş, Çəpiş, Quzu, Qaranquş daim bir yerdə olurlar və



bir-birinə kömək edirlər. Onlar əlbir olub Tülkü ilə Canavarı da məğlub edirlər. Beləcə, dostluq və dürüstlük, qorxmazlıq və birlik qalib gəlir.

Maraqla qarşılanan tamaşadan sonra X.Əlibəylinin qızı, professor Gülər Abdullabəyli, UAFA (Azərbaycana Birgə Yardım) Valideyn Birliyinin koordinatoru Zəhra Xələfova çıxış edərək tədbirin təşkilatçılarına və yaradıcı heyətə təşəkkür ediblər.

# Dədə Ələsgər işığında saz-söz axşamı

Martın 27-də Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyi və "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin birgə təşkilatçılığı ilə konsert keçirilib.



"Dədə Ələsgər işığında saz-söz axşamı" adlı konsert böyük saz-söz ustadı Aşıq Ələsgərin (1821–1926) anadan olmasının 203-cü ildönümü münasibətilə gerçəkləşib.

Vətən uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra "Dədə Ələsgər Ocağı" İB-nin sədri Xətai Ələsgərli, Azərbaycan Tibb Universiteti Epidemiologiya və biostatistika kafedrasının müdiri tibb elmləri doktoru, professor İbadulla Ağayev çıxış ediblər. Qeyd olunub ki, Aşıq Ələsgər çoxəsrlik keçmişə malik aşıq sənəti ənənələrinə ən yüksək bədii-estetik meyarlarla yeni məzmun qazandırıb.

Bildirilib ki, 2021-ci ildə dövlət başçısının sərəncamı ilə Aşıq Ələsgərin 200 illiyi geniş şəkildə qeyd olunub. Yubiley münasibətilə ustad aşığın zəngin poetik irsinin geniş tədqiqi, nəşri və təbliği istiqamətində böyük işlər görülüb.

Tədbirdə bir sıra şəxslərə "Dədə Ələsgər Ocağı" İB-nin "Aşıq Ələsgər – 200" yubiley medalı təqdim olunub.

Gecədə incəsənət ustalarının ifasında rəngarəng konsert proqramı təqdim edilib.

**Lalə**

# "Muzeydə musiqi" layihəsində daha bir konsert



Mədəniyyət Nazirliyi və Milli İncəsənət Muzeyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Muzeydə musiqi" layihəsi növbəti konsert proqramı olub. Bu barədə muzeydən məlumat verilib.

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının "Gənclərə dəstək" layihəsi çərçivəsində təqdim olunan konsertdə xormeyster, Əməkdar artist Naala Barateliyanın rəhbərliyi altında F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının xor qrupu, solistlər – respublika və beynəlxalq müsabiqələr laureatları Talıb İsgəndərli (bariton), Cəlil Beşirli (tar), Lalə Əhmədova (piano), Surə Rüfət (violin), Mehin Zalıyeva (piano), Orxan Əlizadə (tenor), Orxan Mövlan (tenor), Cəlalə İsmayılzadə (cello), Abid Çələbiyev (kamança), Əli Vəliyev (piano) çıxış ediblər.

Azərbaycan və dünya bəstəkarlarının yaradıcılığından nümunələr ifa olunub. Proqram Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı üzvlərinin çıxışı ilə davam edib.

Tədbir çərçivəsində qonaqlar muzeydə "Salam, Novruz!" sərgisi ilə də tanış olublar.

# ICESCO ölkəmizlə əməkdaşlığı daha da inkişaf etdirmək istəyir

Milli Məclisin sədri Sahibə Qafarova İsveçrənin Cenevrə şəhərində keçirilən Parlamentlərarası İttifaqın 148-ci Assambleyası çərçivəsində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) baş direktoru Salim bin Məhəmməd əl-Malik ilə görüşüb.

Görüşdə təşkilatla Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə inkişaf etdiyi və tərəflər arasında davamlı dialoqun mövcudluğu məmnunluqla qeyd edilib.

Milli Məclisin sədri ölkəmizin bu təşkilata və İslam ölkələri ilə əməkdaşlığa böyük önəm verdiyini vurğulayıb. Bildirilib ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür, həmçinin Azərbaycan ICESCO ilə əməkdaşlığı yüksək qiymətləndirir və bu əməkdaşlığa xüsusi önəm verir.

Görüşdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi (QHPŞ) konfransının əhəmiyyəti və aparılan müzakirələrin aktuallığı vurğulanıb. QHPŞ-də ICESCO-ya müşahidəçi statusunun verilməsinin tərəflər arasında əməkdaşlığa töhfə verəcəyi bildirilib.



Söhbət zamanı Salim bin Məhəmməd əl-Malik ICESCO-nun Azərbaycanla əməkdaşlığın daha da inkişafında maraqlı olduğunu bildirib. O, ötən illərdə Azərbaycana səfərləri çərçivəsində ölkə rəhbərliyi ilə keçirdiyi görüşləri məmnunluqla xatırlayıb, ICESCO-Azərbaycan Fəaliyyət Planının əməkdaşlığın daha da dərinləşməsinə töhfə verəcəyini bildirib.

Baş direktor Heydər Əliyev Fondunun İslam dünyasında təhsil, elm, mədəniyyət sahələrində gördüyü işləri yüksək qiymətləndirib. O, həmçinin Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etmək hüququ qazanmasına, həmçinin Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunmasına görə təbriklərini çatdırıb.

***

Qeyd edək ki, Cenevrə şəhərində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 3-cü konfransı da keçirilib. Konfransda ICESCO-ya QHPŞ-də müşahidəçi statusu verilib. ICESCO Qoşulmama Hərəkatı Parlament Şəbəkəsində müşahidəçi statusu alan dördüncü beynəlxalq təşkilat olub.

# Azərbaycan elminin günü...

Martın 27-də Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) Elm Günü münasibətilə tədbir keçirilib.



AMEA-dan bildirilib ki, tədbir iştirakçıları əvvəlcə Xalq rəssamı, akademik Ömər Eldarovun heykəltaraşlıq sərgisi, AMEA loqosunun eskizləri, eləcə də Arxeologiya və Antropologiya İnstitutunun nəşrləri ilə tanış olublar.

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin "Elm Günü və günün elmi: humanitar tədqiqatlar və süni intellekt" mövzusunda nitqi dinlənilib. Elm Gününün ölkə başçısının 2018-ci il 9 aprel tarixli sərəncamı ilə təsis edildiyini diqqətə çatdıran akademik Azərbaycan elminin Orta əsrlərdən bu günədək tarixinə qısa nəzər salıb.

Ölkəmizdə elmin təşkilatlanmasından söz açan İsa Həbibbəyli bildirib ki, 1923-cü ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti, 1932-ci ildə onun əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi təşkil edilib. Şöbə 1935-ci ildə isə SSRİ EA Azərbaycan Filialına çevrilib. 1945-ci il martın 27-də isə 15 həqiqi üzvün iştirakı ilə Azərbaycan SSR Elmlər Akademiyası təsis olunub.

AMEA-nın ötən müddətdə zəngin inkişaf yolu keçdiyini deyən akademik bu xüsusda Ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olduğunu vurğulayıb. Qeyd olunub ki, Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Azərbaycan elmi yeni inkişaf mərhələsinə qədəm qoyub. O cümlədən "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi təşkil olunub, Yüksək Texnologiyalar Parkı yaradılıb, AMEA-nın Mərkəzi Elmi Kitabxanasının yeni binası tikilib, Şamaxı Astrofizika Rəsədxanasının maddi-texniki bazası yenilənib.

Prezidentin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2022-ci il 28 iyul tarixli fərmanını da diqqətə çatdıran İsa Həbibbəyli Elm və Təhsil Nazirliyinin AMEA ilə birgə ölkəmizdə elmi fəaliyyətin təşkili istiqamətində səylər göstərdiyini deyib.

Beynəlxalq əlaqələrə də toxunan AMEA rəhbəri 2023-2024-cü illərdə akademiyanın 3 beynəlxalq elmi təşkilata üzv olduğunu, xüsusilə türk dövlətlərinin akademik qurumları və ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq edildiyini vurğulayıb.

Tədbirdə çıxış edən Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa AMEA-nın Azərbaycan xalqının intellektual potensialının formalaşmasında, onun sosial-ictimai tərəqqisində mühüm rol oynayan qurum olduğunu deyib. O, dünya elminin çağırışlarına cavab verən elmi tədqiqatlara üstünlük verməyin, Azərbaycan elmini beynəlxalq elmi tələblərə uyğunlaşdırmağın vacibliyini qeyd edib.

Tədbir çərçivəsində həmçinin Xalq rəssamı, akademik, ömrünün 70 ildən çoxunu heykəltaraşlıq sənətinə həsr etmiş Ömər Eldarovun həyat və fəaliyyətini əks etdirən "Hələ axşam deyil" sənədli filmi və akademik Yusif Məmmədəliyev haqqında film nümayiş etdirilib.

Elmi fəaliyyətində fərqlənən bir sıra alimlərə AMEA-nın fəxri fərmanları təqdim olunub.

# "Klassik irsimizin Mirzə Şəfi Vazeh zirvəsi"

Masallı rayon Mərkəzi Kitabxanasında görkəmli şair, mütəfəkkir, maarifçi Mirzə Şəfi Vazehin (1794–1852) anadan olmasının 230 illiyi münasibətilə tədbir keçirilib.



"Klassik irsimizin Mirzə Şəfi Vazeh zirvəsi" adlı tədbirdə şairin Azərbaycan ədəbiyyatı və ictimai fikir tarixində yerindən, həyat yolundan söz açılıb. Bildirilib ki, Gəncədə doğulan, mükəmməl təhsil alan Mirzə Şəfi gənc yaşlarından şeirlər yazıb. Bir müddət sonra Tiflisə köçən şairin poeziyasının şöhrəti Avropaya da yayılıb. Əsərlərini Azərbaycan və fars dillərində yazan M.Ş.Vazeh əsasən lirik şeirlər qələmə alıb. Onun şeirlərində gözəllik, dünya nemətləri tərənnüm olunur, məhəbbət saxta dini etiqada qarşı qoyulur.

M.Ş.Vazeh Azərbaycan dilində ilk dərs vəsaitinin müəllifi və "Divani-hikmət" ədəbi məclisinin təsisçisi kimi də xalqın maariflənməsində əvəzsiz rol oynayıb.

# Mart ayında doğulan şəhidlərin xatirəsi anılıb

Martın 27-də "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təşkilatçılığı və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə mart ayında dünyaya göz açmış şəhidlərin xatirəsi anılıb.



Əvvəlcə Naxçıvan televiziyasının həmin şəhidlərlə bağlı hazırladığı videoçarx nümayiş etdirilib. Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri 34 nəfər Birinci və İkinci Qarabağ müharibələri şəhidlərinin portretləri ilə səhnəyə çıxıblar.

Şəhid valideynləri İlham Cabbarov, Gülnarə Quliyeva və Məhəbbət Məmmədəliyeva çıxış edərək övladlarının xatirələrinin bu cür yad olunmasının onlarda təskinlik və fərəh hissi oyatdığını bildirib, tədbirin təşkilində əməyi olanlara təşəkkür ediblər.

Sonda Naxçıvan Dövlət Universitetinin tələbə teatr-studiyası və "Belkanto" vokal qrupunun şəhidlərin xatirəsinə birgə hazırladığı bədii kompozisiya təqdim olunub.

# "Xalqın mədəni sərvəti"

## Layihə bu dəfə Cabbar Qaryağdıoğluna həsr olunub

Xəbər verdiyimiz kimi, F.Əmirov adına Gəncə Dövlət Filarmoniyası martın 27-dən 29-dək Mədəniyyət Nazirliyinin dəstəyi, Gəncə-Daşkəsən və Mərkəzi Aran Regional Mədəniyyət idarələrinin təşkilatçılığı ilə "Xalqın mədəni sərvəti" layihəsini təqdim edir.

Üçüncü dəfə keçirilən layihə Azərbaycan xanəndəlik sənətinin görkəmli nümayəndəsi, Xalq artisti Cabbar Qaryağdıoğlunun (1861–1944) xatirəsinə həsr olunub.

Layihənin ilk günü Gəncə şəhəri, Samux və Goranboy rayonlarında fəaliyyət göstərən bir sıra uşaq musiqi və incəsənət məktəbləri müəllim və şagirdlərinin iştirakı ilə konsert proqramı təqdim edilib.

Həmçinin Mərkəzi Aran RMİ-nin təşkilatçılığı ilə Ağdaşdakı Heydər Əliyev Mərkəzində Ağdaş, Göyçay və Yevlaxdakı musiqi məktəbləri, Yevlax şəhər Mədəniyyət Mərkəzi, Göyçay rayon Mədəniyyət Mərkəzinin müəllim və şagirdləri muğam və təsniflər, xalq mahnılarından ibarət konsert proqramı ilə çıxış ediblər.



Xatırladaq ki, "Xalqın mədəni sərvəti" layihəsi üzrə yanvarın 8-dən 14-dək keçirilən tədbirlər Fikrət Əmirova, fevralın 14-dən 16-dək təşkil olunan tədbirlər isə Qara Qarayevə həsr edilib.

# Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı konfrans

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS, Bəşir Səfəroğlu adına rayon Mədəniyyət Mərkəzi, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı (MİHİ) Quba rayon komitəsi və Quba Soyqırımı Memorial Kompleksi tərəfindən "31 Mart - Azərbaycanlıların Soyqırımı Günü"dür adlı elmi-praktik konfrans keçirilib.

Əvvəlcə tədbir iştirakçıları tərəfindən Quba Soyqırımı Memorial Kompleksindəki kütləvi məzarlıq ziyarət edilib.

Kompleksin direktoru tarix üzrə fəlsəfə doktoru Rəxşəndə Bayramova Azərbaycan torpaqları hesabına dövlət quran ermənilərin tarixin bütün mərhələlərində xalqımıza qarşı insanlığa sığmayan qanlı əməlləri ilə yadda qaldığını diqqətə çatdırıb.

MKS-nin direktoru Samədin Nəsirov, rayon Mədəniyyət Mərkəzinin direktoru Ramiz Ramazanlı və MİHİ Quba rayon komitəsinin sədri Məhərrəm Hacıyev 1918-ci ilin mart-aprel aylarında erməni silahlı dəstələrinin Bakı, Şamaxı, Quba, Lənkəran, Naxçıvan və digər yerlərdə on minlərlə azərbaycanlını qətlə yetirilməsi, yurd-yuvasından didərgin salınması barədə danışıblar. Qeyd olunub ki, Ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların



soyqırımı haqqında" fərmanla ilk dəfə olaraq dövlət səviyyəsində 1918-ci ilin qırğınlarına siyasi qiymət verilib.

Tədbir çərçivəsində Quba Soyqırımı Memorial Kompleksində yerləşən muzeyə ekskursiya təşkil olunub.

# Bölgələrin bahar havası



Bölgələrdə Novruz bayramı münasibətilə müxtəlif səpkili tədbirlər keçirilib.

Abşeron rayonunun Xırdalan şəhərindəki Heydər Əliyev adına mədəniyyət və istirahət parkında Novruz şənliyi təşkil olunub. Tədbir Abşeron Rayon İcra Hakimiyyətinin dəstəyi, rayon mədəniyyət müəssisələrinin təşkilatçılığı ilə gerçəkləşib. Parkın hər guşəsi bayram atributları ilə bəzədilib, məktəblər və bağçalar öz stendləri ilə qonaqları sevindirib. Dədə Qorqud və Bahar qızı yazın gəlişini müjdə verməklə abşeronluların əhvali-ruhiyyəsinə bayram ovqatı qatıb.

Novruz bayramı Sumqayıtda da böyük təntənə ilə qeyd olunub. "Kimyaçı" Mədəniyyət Sarayının qarşısında keçirilən bayram tədbirində Dədə Qorqud və Bahar qızı xeyir-dua verib, milli geyimli uşaqlar meydanda rəqs ediblər.

***

Lənkəran-Astara RMİ-nin rəisi Bəxtiyar Qılıncov və idarənin əməkdaşları Novruz bayramı münasibətilə şəhid ailələrini ziyarət ediblər. İdarə rəisi şəhid ailələrini bayram münasibətilə təbrik edib, onların qayğıları ilə maraqlanıb.

Masallı Dövlət Rəsm Qalereyası və rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Yaz gəlir" adlı bayram tədbiri keçirilib. Çıxışlarda Novruz adətlərindən, nümayiş olunan oyunlar, tamaşalar, səsləndirilən nəğmələr, inanc və mərasimlərdən söhbət açılıb. Məktəblilər Novruz atributlarını əks etdirən rəsmlər çəkiblər.

***

Dağlıq Şirvan RMİ-nin rəisi Səxavət Məmmədov, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı (MİHİ) İsmayıllı rayon komitəsinin sədri Gülər Abdullayeva Novruz bayramı münasibətilə şəhidlər Xəyyam Daşdəmirov, Taleh Qənbərli və Dilqəm Şirinovun ailələrini ziyarət ediblər.

İsmayıllı rayonunda Novruz bayramı münasibətilə təntənəli tədbir keçirilib. Tədbir iştirakçıları İsmayıllı rayon Mədəniyyət Mərkəzində təşkil olunmuş Novruz sərgisinə baxış keçiriblər. Şagirdlər Novruz bayramına aid mahnılar ifa edib, şeirlər səsləndiriblər. Tanınmış müğənnilər, "Lahıc" folklor qrupu bir-birindən fərqli ifalarla bayram iştirakçılarına xoş anlar bəxş ediblər.

***

Şəki-Zaqatala RMİ-nin təşkilatçılığı, Şəki Şəhər İcra Hakimiyyəti və "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun dəstəyi ilə konsert proqramı keçirilib.



Balakən rayon Mədəniyyət Mərkəzində bayram münasibətilə ümumrayon tədbiri keçirilib. Rayon rəhbərliyi və qonaqlar əvvəlcə mərkəzin foyesində xalqımızın milli adət-ənənələrini özündə əks etdirən sərgilərlə tanış olub, el sənətkarlarının əl işlərinə baxıblar. Bayram şənliyi rayonun bədii özfəaliyyət, rəqs və folklor kollektivləri tərəfindən rəngarəng konsert proqramı ilə davam edib.

***

Gəncə Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı, Gəncə-Daşkəsən RMİ, F.Əmirov adına Gəncə Dövlət Filarmoniyası, Gəncə Dövlət Kukla Teatrı və Gəncə Dövlət Dram Teatrının dəstəyi ilə şəhərin Heydər Əliyev adına meydanında Novruz bayramı münasibətilə ümumşəhər tədbiri keçirilib. Şəhər Uşaq incəsənət məktəbinin "Xəmsə" nağaraçalanlar ansamblı, Z.Qayıbov adına 5 nömrəli Uşaq musiqi məktəbinin aşıq sinfi, Göygöl rayon Mədəniyyət Mərkəzindəki dərnək üzvlərinin eləcə də Gəncə Dövlət Filarmoniyası "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının təqdimatında konsert proqramı alqışlarla qarşılanıb.

***

Şərqi Zəngəzur RMİ-nin tabe müəssisələrində Novruz bayramı ilə əlaqədar tədbirlər keçirilib. Tədbirlərdə müəllim və şagirdlərin, eyni zamanda tanınmış müğənnilərin ifasında mahnılar səslənib, rəqslər ifa olunub.

Bahar qızının gəlişi, Kosa ilə Keçəlin məzəli çıxışları tədbirə xüsusi rəng qatıb. Milli adət-ənənələrimizi əks etdirən bir sıra oyunlar tədbir iştirakçılarında xoş əhvali-ruhiyyə yaradıb.

***

Ağdaş Rayon İcra Hakimiyyəti və Mərkəzi Aran RMİ-nin birgə təşkilatçılığı ilə Novruz bayramı münasibətilə ümumrayon tədbiri keçirilib. Mədəniyyət müəssisələri əməkdaşlarının təqdimatında səsləndirilən bayram əhvallı musiqilər qonaqların ruhunu oxşayıb.

Göyçay Rayon İcra Hakimiyyəti və Mərkəzi Aran RMİ-nin birgə təşkilatçılığı ilə keçirilən ümumrayon tədbirində Uşaq-gənclər inkişaf mərkəzi və rayon Mədəniyyət Mərkəzi tərəfindən konsert proqramı təqdim olunub.




Ucar Rayon İcra Hakimiyyəti və rayonda fəaliyyət göstərən mədəniyyət müəssisələrinin birgə təşkilatçılığı ilə "Yurdumuza bahar gəlir" adlı bayram tədbiri keçirilib. Milli mətbəxin ləziz təamların, Novruz bayramına xas adət-ənənələrin nümayiş olunduğu bayram tədbiri konsert proqramı ilə davam etdirilib.

Mingəçevirdə ümumşəhər tədbirində mədəniyyət müəssisələrinin əməkdaşları tərəfindən konsert proqramı təqdim edilib.

***

Füzuli rayon Heydər Əliyev Mərkəzində (Horadiz şəhəri) Səməni festivalı keçirilib. Festivalda Füzuli rayon MKS tərəfindən Novruz adət-ənənələrini, mətbəxini əks etdirən sərgilər təşkil olunub. Milli mətbəximizin ləziz təamlarından göy qutabı və fəsəli, lavaş hazırlanıb, kəklikotulu samovar çayı, paxlava, şəkərbura, səməni bayram süfrəsini bəzəyib. Tədbirə qatılan ziyalılar, ictimaiyyət nümayəndələri Novruz adətləri haqqında xatirələrini, fikirlərini söyləyiblər.

***



Qazax-Tovuz RMİ-nin tabeliyində fəaliyyət göstərən bir sıra müəssisələr tərəfindən Novruz bayramı ilə bağlı şəhid ailələri ziyarət olunub. Ailə üzvləri ilə görüşlərdə ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib, ailələrə bayram sovqatı təqdim olunub.



Tovuz rayon Düz Qırıqlı kənd Uşaq musiqi məktəbi və Ağstafa rayon Dağkəsəmən kənd 1 saylı körpələr evi-uşaq bağçasında Novruz şənliyi keçirilib.

***

Sabirabad rayonundakı N saylı hərbi hissədə Novruz şənliyi təşkil olunub. Tədbir Sabirabad Rayon İcra Hakimiyyətinin təşəbbüsü, Mil-Muğan RM və başqa qurumların birgə təşkilatçılığı ilə keçirilib. Çıxışlardan sonra hərbçilərə bayram sovqatı təqdim olunub. Tədbir konsert proqramı ilə davam edib.

İmişli Rayon İcra Hakimiyyəti və rayon üzrə mədəniyyət müəssisələrinin birgə təşkilatçılığı ilə Novruz şənliyi keçirilib. İmişli rayon Heydər Əliyev adına istirahət parkında gerçəkləşən tədbirdə rayonun mədəniyyət və incəsənət nümayəndələrinin ifasında bayram ab-havalı musiqi və rəqs nömrələri təqdim edilib.



Saatlı Rayon İcra Hakimiyyəti və rayondakı mədəniyyət müəssisələrinin birgə təşkilatçılığı ilə keçirilən şənlikdə şəhid ailələrinin üzvləri, qazilər, idarə və müəssisələrin rəhbər və əməkdaşları, mədəniyyət işçiləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

***

Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyinin Xalça muzeyi filialında Novruz bayramına həsr olunmuş "Bahar sevincləri" adlı tədbir keçirilib. Qeyd olunub ki, Novruz bayramı insanlar arasında birliyin və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam bir təməl yaradıb. Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbət bayramıdır. Tədbir bayram konserti ilə davam edib.

Xudat şəhər Uşaq musiqi məktəbi və Siyəzən rayon Mədəniyyət Mərkəzində də bayram tədbirləri keçirilib.

***

Biləsuvar Rayon İcra Hakimiyyəti və Şirvan-Salyan RMİ-nin təşkilatçılığı ilə Novruz bayramı ilə bağlı tədbir keçirilib. Novruzun adət-ənənələrini özündə əks etdirən tədbir iştirakçılara xoş əhvali-ruhiyyə bəxş edib.

Hacıqabul şəhər Uşaq musiqi məktəbində Novruz bayramı münasibətilə konsert proqramı təşkil olunub. Konsertdən əvvəl Novruz adətlərindən söhbət açılıb, fərqlənən şagird və müəllimlər diplomlarla təltif ediblər.

Sonda rəngarəng musiqilər səsləndirilib.

**Hazırladı: N.Məmmədli**

# Xırdalan musiqi məktəbinin kollektivi Gürcüstanda Novruz bayramında

Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən Xırdalan şəhər Musiqi məktəbinin kollektivi Gürcüstana səfərdən qayıdıb. Səfər ölkəmizin Gürcüstandakı səfirliyinin dəstəyi, M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi və Gürcüstanın Azərbaycanlı Ağsaqqallar Şurasının birgə təşkilatçılığı ilə reallaşıb.

Məktəbin direktoru Əməkdar müəllim İkram Manafov bildirib ki, kollektiv ənənəvi olaraq Novruz bayramında Tbilisi şəhərinə dəvət alır, bayram tədbirlərində iştirak edir.

Gürcüstanın paytaxtındakı Heydər Əliyev parkının qarşısında təşkil olunan builki tədbir Novruz tonqalının alovlandırılması ilə başlayıb. Sonra musiqi məktəbinin kollektivi geniş konsert proqramı ilə çıxış edib.



# “Sabah ölkəsi” Odlar yurdu ilə görüşür”

## Azərbaycan və Almaniya gənc musiqiçilərinin birgə layihəsi

Martın 27-də Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında “Morgenland” Odlar yurdu ilə görüşür” (“Morgenland Meets The Land of Fire”) adlı Azərbaycan və Almaniya gənc musiqiçilərinin birgə layihəsi təqdim olundu.



Konsertdən əvvəl Mahnı Teatrının bədii rəhbəri Xalq artisti Salman Qəmbərov layihə haqqında məlumat verdi. Qeyd etdi ki, layihə 20 ildir Almaniyanın Osnabrük şəhərində təşkil edilən “Morgenland” (“Sabah ölkəsi”) festivalı çərçivəsində keçirilir. O, almaniyalı musiqiçiləri ölkəmizdə salamlayaraq layihəyə qatılan yerli gənclərin seçimində göstərdiyi dəstəyə görə Azərbaycan Milli Konservatoriyası və Sumqayıt Musiqi Kollecinin rəhbərliyinə minnətdarlığını bildirdi.

Sonra konsert təqdim olundu. Alman bəstəkarlarının əsərləri və Azərbaycan xalq mahnıları üzərində qurulan caz kompozisiyaları maraqla qarşılandı.

Qeyd edək ki, Yaxın Şərq mədəniyyətinə həsr olunan festivalın əsas aksiyalarından biri 14-20 yaş arası gənc musiqiçilər üçün nəzərdə tutulmuş “Morgenland akademiyası”dır. Professional musiqiçilərin rəhbərliyi altında birhəftəlik musiqi düşərgəsi çərçivəsində iştirakçılar Avropa musiqi ənənələrindən fərqlənən, muğama əsaslanan Qafqaz və Orta Asiya musiqisi ilə tanış olurlar. “Morgenland akademiyası” məzunlarından ibarət “Morgenland gəncləri” ansamblı mütəmadi olaraq layihə və konsertlər təşkil edir.

“Morgenland” Odlar yurdu ilə görüşür” layihəsinin rəhbəri Salman Qəmbərov artıq 2009-cu ildən bu festivalda iştirak edir. Hər il festival çərçivəsində gənclər üçün ustad dərsləri təşkil olunur. Bu il festivalın təşkilat komitəsi belə bir layihəni ona həvalə edib.

**Lalə Azəri**

# “Novruz” musiqili tamaşası nümayiş etdirilib

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə martın 19-da Heydər Əliyev Sarayında “Novruz” musiqili tamaşası nümayiş olunub.

Vətən müharibəsi şəhidlərinin övladları, valideyn himayəsindən məhrum olmuş və sağlamlıq imkanları məhdud uşaqlar üçün internat və ümumtəhsil məktəblərinin şagirdləri tamaşaya maraqla baxıblar.

Təbiətin oyanışını simvolizə edən ilaxır çərşənbələrin əhatə olunduğu dördhissəli tamaşanın məqsədi Azərbaycanın tarixi qədər qədim olan Novruz bayramını, onun çoxminillik adət-ənənələrini təbliğ etmək, milli-mənəvi dəyərləri gələcək nəsillərə ötürməkdir. Tamaşada uşaqlar da aktyor qismində çıxış ediblər.

Qeyd edək ki, musiqili tamaşanın quruluşçu rejissoru Əməkdar artist Nicat Kazımovdur. O həm də yazıçı-dramaturq İlqar Fəhmi ilə birgə tamaşanın ssenari müəllifidir. Səhnə əsərinin musiqi tərtibatını bəstəkar Azər Hacıəsgərli verib.

Bayram tədbirində Mədəniyyət Nazirliyinin nümayəndələri, mədəniyyət, incəsənət xadimləri də iştirak ediblər.



# Milli Dram Teatrı beynəlxalq peşə bayramında şəkililərin qonağı olub

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə paytaxtda fəaliyyət göstərən teatrların şəhər və rayonlara qastrol səfərləri davam edir.



Layihə çərçivəsində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı Şəki teatrsevərlərinin qonağı olub. Kollektiv beynəlxalq peşə bayramı, 27 mart – Dünya Teatr Günündə Şəki Dövlət Dram Teatrının səhnəsində Avksenti Saqarelinin “Xanuma” tamaşasını təqdim edib.

Tamaşada Xalq artistləri Bəsti Cəfərova, Cəfər Namiq Kamal, Hacı İsmayılov, Səidə Quliyeva, Kazım Abdullayev, Əməkdar artistlər Mətanət Atakişiyeva, Məsmə Aslanqızı, Elşən Rüstəmov, Elşən Cəbrayılov, Şəlalə Şahvələdqızı, Elnar Qarayev, aktyorlar Ramin Şıxəliyev, Vüsal Mustafayev, Elçin Əfəndi, Tural İbrahimov və Şəki şəhər 2 saylı musiqi məktəbinin müəllimi Vəfa Əliyeva çıxış edib.

Mikayıl Mikayılovun quruluşunda hazırlanan tamaşanın rəssamı Mustafa Mustafayevdir. Rəqslərin quruluşu Zakir və Yelena Ağayevlərə məxsusdur.

Səhnə əsəri tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

# Filarmoniyada konsertlər

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində “Baharın səsi” adlı konsert keçirilib.





Konsertdə dirijor Mustafa Mehmandarovun rəhbərliyi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və solistlər – respublika və beynəlxalq müsabiqələrin laureatları Ataş Qarayev (tenor), Nigar Əsgərova (soprano) çıxış ediblər.

Proqramda Ü.Hacıbəylinin “Arşın mal alan” operettasından Əsgərin və Gülçöhrənin ariyaları, F.Əmirovun “Azərbaycan” süitası, A.Əlizadənin “Babək” baletindən fraqmentlər, X.Mirzəzadənin “Bağ mövsümü” kinofilminə yazdığı “Gəzinti”, Q.Qarayevin “Dəniz neftçiləri haqqında povest” kinofilmindən Vals, T.Quliyevin “Laylay”, Niyazinin “Vətən haqqında nəğmə” və “Qaytağı” əsərləri səsləndirilib.

***

Azərbaycan Dövlət Akademik Filarmoniyasında daha bir musiqi axşamında Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri (bədii rəhbər və baş dirijor Xalq artisti Fəxrəddin Kərimov) çıxış edib.

Orkestr və solist, Əməkdar artist Fəridə Məmmədova (soprano) klassik musiqi nümunələrini ifa edib. Proqramda V.Motsartın “Divertisment” (D dur, K.136), “Exsultate, Jubilate” moteti (K.165), F.Şubertin “Offertorium”, op.46, D.136 (Bakıda ilk ifa), P.Çaykovskinin “Elegiya”, F.Əlizadənin “Rəqs” və N.Skalkottasın 5 yunan rəqsi (Bakıda ilk ifa) yer alıb.

# Qusarlıların “Adət”inə görə...





Novruz tətilindən sonra Azərbaycan Teatr Xadimləri İttifaqı (ATXİ) sənətsevərləri salonuna toplayaraq onlara daha bir bayram havası yaşatmağa çalışdı. Özü də 27 mart – Dünya Teatr Günündə. Həmin gün qusarlı teatr təmsilçiləri paytaxtdakı teatrsevərlərə qoşularaq əlamətdar günü qeyd etdilər.

ATXİ-nin məsul katibi, teatrşünas Aida Qafarova tədbirə qatılanları beynəlxalq peşə bayramı münasibətilə təbrik etdi, bu günün əhəmiyyətindən, dünyada və ölkəmizdə teatra münasibətdən qısa söz açdı. İttifaqın il ərzində reallaşacaq tədbirləri, ənənə halını alan layihələr barədə də məlumat verildi.

Sonda səhnə ATXİ-nin “Qonaq teatr” layihəsinin növbəti iştirakçısı – Qusar Dövlət Ləzgi Dram Teatrının aktyorlarına verildi. Teatrın repertuarındakı maraqlı səhnə nümunələrindən olan “Adət” tamaşası (müəllif Turqut Özakman) göstərildi.

Əsər iki ailə arasında uzun illər baş verən qan davasını ön plana çıxarır. Tamaşa boyu sadə, insanların köhnə fikir və adətlər ucbatından necə asanlıqla bədbəxtliyə düçar olaraq neçə-neçə talelərin məhvə yuvarlandığına şahidlik edirik.

Səhnə əsərinin quruluş müəllifi Xəzər Gəncəli, quruluşçu rəssamı Marina Mahmudova, musiqi tərtibatçısı Şaiq Qardaşovdur. Rolları Bağır Əhmədov, Bədəl Bədəlov, Elnur Hacıyev, Lalə Qurbanova, Emma Xeyirbəyova, Kəmalə Səfərova, Yeganə Kərimova, Sədaqət Əlimuradova, Şəküfə Mirzəağayeva, Rəhilə Hacıyeva, Diana Cəfərova ifa edirdilər.

Maraqla izlənilən tamaşadan sonra teatrın direktoru Əməkdar mədəniyyət işçisi Faiq Qardaşov və quruluşçu rejissor Əməkdar artist Xəzər Gəncəli ATXİ-nin fəxri fərmanı ilə təltif olundular.

Qeyd edək ki, Mədəniyyət Nazirliyi və ATXİ-nin təşkilatçılığı ilə həyata keçirilən layihənin məqsədi bölgə teatrlarının paytaxta inteqrasiyasına təkan vermək, onların yaradıcılıq potensialını daha geniş auditoriyaya təqdim etməkdir.

**Həmidə**

# Musiqisi Şəfiqə Axundovanındır...

Görkəmli bəstəkar, Xalq artisti Şəfiqə Axundovanın (1924–2013) 100 illik yubileyi münasibətilə martın 18-də Beynəlxalq Muğam Mərkəzində (BMM) konsert keçirilib.



Yubiley gecəsində bəstəkarın ömür yoluna nəzər salınıb. Çıxışlarda qeyd olunub ki, 1924-cü ildə Şəkidə ziyalı ailəsində anadan olan Şəfiqə Axundova uşaqlıqdan musiqiyə maraq göstərib. O, müsəlman Şərqində ilk opera yazan qadın kimi tarixə düşüb. Müxtəlif janrlarla musiqiləri, o cümlədən unudulmaz melodiyalı mahnıları ona Azərbaycanın hüdudlarından kənarda da şöhrət gətirib.

Sonra bəstəkara həsr olunan videoçarx nümayiş etdirilib.

Konsert proqramında Xalq artistləri Teyyub Aslanov, Gülyaz Məmmədova, Əməkdar artistlər Zakir Əliyev, Təhmiraz Şirinov, Nuriyyə Hüseynova, Sevinc Sarıyeva, İlkin Əhmədov, Gülüstan Əliyeva, Nüşabə Ələsgərli, Arzu Əliyeva, müğənnilər Rəvanə Qurbanova, İlahə Rüstəmova, Sərxan Bünyadzadə, Orxan Hüseynov və Ramazan Şərifzadə Şəfiqə Axundovanın bəstələrini səsləndiriblər. Onları Rövşən Qurbanovun rəhbərliyi ilə BMM-nin instrumental qrupu müşayiət edib.

Tədbirdə tanınmış ziyalılar, bəstəkarın ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Rəngarəng konsert proqramı alqışlarla qarşılanıb.

# Vaqif Mustafazadənin xatirəsi adını daşıyan məktəbdə anılıb

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq incəsənət məktəbində görkəmli bəstəkar, pianoçu və caz-muğam üslubunun banisi, Əməkdar artist V.Mustafazadənin (1940–1979) anadan olmasının 84-cü ildönümünə həsr olunmuş tədbir keçirilib.



Tədbirdə tanınmış mədəniyyət və incəsənət xadimləri və məktəbin kollektivi iştirak edib.

Görkəmli caz ustasının qısa ömür yolu və zəngin yaradıcılığından, musiqi mədəniyyətimizin inkişafına töhfələrindən danışılıb.

Sonra bədii proqram təqdim olunub. Məktəbin müəllim və şagirdlərinin ifasında səslənən musiqi nömrələri alqışlarla qarşılanıb.

# Unudulmaz aktyorun yubileyi münasibətilə

Xalq artisti, görkəmli teatr və kino aktyoru Lütfəli Abdullayevin (1914–1973) anadan olmasının 110-cu ildönümü ilə əlaqədar martın 27-də Yasamal rayon Heydər Əliyev Mərkəzində “Əhməd haradadır?” filmi nümayiş olunub.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə keçirilən tədbirə Yasamal rayonunda yerləşən 53 və 60 nömrəli tam orta məktəblərin bir qrup şagirdi qatılıb.

Əvvəlcə Lütfəli Abdullayevin həyat və yaradıcılığı, Azərbaycan kinosunda yaratdığı obrazlar qalereyası haqqında məlumat verilib.

Sonra məktəblilər görkəmli aktyorun “Zülümov” obrazını yaratdığı “Əhməd haradadır?” (1963, rejissor Adil İsgəndərov) filminə baxıblar.

# “Muğam mühazirələri” – ədəbi-bədii gecə

Beynəlxalq Muğam Mərkəzində (BMM) “Muğam mühazirələri” adlı konsert keçirilib. “Azərbaycan muğamı” adlı layihə çərçivəsində martın 17-də reallaşan tədbir tanınmış xanəndə, pedaqoq, Əməkdar incəsənət xadimi Aqil Məlikovun iştirakı ilə gerçəkləşib.



Muğam konserti şəklində təqdim olunan ədəbi-bədii gecədə “Rast” muğamı səslənib. Muğamın xüsusiyyətləri, şöbələrdə qəzəllərin bölünməsi, rəng və təsniflər haqqında muğam ustasının söhbət və qənaətlərini BMM-in solistləri Məmməd Nəcəfov, Hüseyn Məlikov və Muğam televiziya müsabiqəsinin qalibi Rəvan Qaçayevin ifaları əvəzləyib. Xanəndələr mühazirəni əyani şəkildə öz ifaları ilə tamaşaçılara nümayiş etdiriblər.

Aqil Məlikovun muğam və qəzəlin bir-biri ilə bədii-estetik, lirik-emosional bağlılığı, qəzəllərin məzmunu, obrazlılığı, muğam musiqisinə təsiri mövzusunda çıxışı böyük maraqla qarşılanıb.

# İsfar Sarabskinin üçlüyü Avropa turunda

Beynəlxalq müsabiqələr laureatı, pianoçu və bəstəkar, Əməkdar artist İsfar Sarabskinin üçlüyü İsveçrə və Almaniyada qastrol səfərindədir.



Səfər çərçivəsində ilk çıxış İsveçrənin Bazel şəhərindəki “Birds Eye Jazz Club”da olub.

Qastrol səfəri İsveçrədə fəaliyyət göstərən “Azərbaycanın Dostları Birliyi” tərəfindən təşkil edilib. Birliyin sədri Arzu Əliyeva-Bodmerin verdiyi məlumata əsasən, üçlüyün martın sonuna qədər Svabiya, Volfsburq və Berlində çıxışları olub.

Tur dünyanın məşhur “Warner Music Group” şirkətinin etiketi altında yeni musiqi albomunun buraxılışı ilə başa çatacaq. Xatırladaq ki, üçlüyün bundan əvvəlki “Planet” albomu da “Warner Music Group” ilə əməkdaşlıq nəticəsində ərsəyə gəlib.

**Lalə**

# Üç gün sonra Şuşaya ayaq basacaqdı...



Tariximizin şanlı səhifəsi olan 44 günlük II Qarabağ müharibəsi Vətən övladlarının mərdliyinin, cəsarətinin, yurd sevgisinin miqyasını dünyaya nümayiş etdirdi. Dostlar sevindi, düşmənlər xar oldu.

Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan igidlərimiz haqqında oxuculara məlumat verməyə davam edirik. Bu dəfə şəhid Vüqar Zamanov haqqında söz açacağıq.

Vüqar İsmayıl oğlu Zamanov 1995-ci il martın 10-da Füzuli rayonunun Horadiz şəhərində anadan olub. Horadiz şəhər Firudin Mehdiyev adına 2 nömrəli tam orta məktəbdə təhsil alıb. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb. Hərbi xidmətini başa vurduqdan sonra bir müddət mülki işlərdə işləyib, idmanın ağır atletika növü ilə məşğul olub.

Qəlbi Vətən eşqi ilə döyünən, doğma yurdun düşmən işğalında qalması ilə barışa bilməyən Vüqar hərbçi olmağa qərar verir. 2016-cı ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirir.

2020-ci ilin 27 sentyabrı. Müasir tariximizin dönüş anı. Torpaqlarımız 30 ilə yaxın idi düşmən işğalındaydı. Tarixi yurd yerlərimiz həqiqi sahiblərinin yolunu gözləyirdi. Yağı düşmındən qisas alaraq doğma torpaqlarımızı azad etmək məqamı yetişmişdi. Bu şərəfli vəzifəni yerinə yetirənlər arasında Vüqar da var idi...

Vüqar Zamanov Vətən müharibəsinin ilk günündən qanlı döyüşlərdə iştirak edir. Döyüş yolu Şuşaya qədər davam edir, səngər yoldaşları ilə verilən tapşırıqların öhdəsindən layiqincə gəlir, düşmənə divan tuturlar. Noyabrın 5-də Şuşanın Daşaltı kəndi istiqamətindəki döyüşlər Vüqarın ömrünü də, qala-şəhərimizə ayaq basa bilmək, "Şuşa fatehi" ünvanını almaq ümidlərini yarıda qoyur. Həmin gün qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlir. Doğulduğu Horadiz şəhər qəbiristanlığında torpağa tapşırılır.

Şəhidin anası Lətifə Zamanovanın sözlərinə görə, Vüqar uşaqlıqdan çox zəhmətkeş olub: "Orta məktəbin VI sinfinə qədər əla qiymətlərlə təhsil alıb. Sonra idmana həvəs göstərməyə başladı. Vətən borcunu ödədikdən sonra yenidən hərbiyə qayıtmaq arzusunda idi. Bir neçə il mülki işlərdə işləməsinə baxmayaraq, öz istəyilə yenidən şanlı hərbçi formasını geyindi".

Lətifə xanım oğlu ilə sonuncu dəfə oktyabrın 28-də əlaqə saxladıqlarını deyib: "Həmin gündən sonra Vüqarla əlaqəmiz kəsildi. Noyabrın 5-də şəhid xəbərini aldıq. Vüqarın şəhid olmağı atasına çox pis təsir etdi. Atası Vüqarın şəhadətindən sonra heç bir il yaşamadı. 2021-ci ilin avqustun 24-də vəfat etdi. Bilirsiniz, mənim üçün danışmaq çox çətindir. Bir il içində həm oğul, həm də həyat yoldaşımın acısını daddım. Tək təsəllim odur ki, Vüqarın qanı yerdə qalmadı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuz torpaqlarımızı düşməndən azad etməklə bütün şəhidlərimizin qisasını aldı. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Qeyd edək ki, Vüqar Zamanov ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzuli, Xocavənd və Şuşanın azad olunmasına görə medalları ilə təltif olunub.

Ruhu şad olsun.

**Nurəddin**

# Əlyazmaların bərpa texnologiyası



AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda "Əlyazmaların bərpası texnologiyası" mövzusunda elmi sessiya keçirilib.

Elm Günü (27 mart) münasibətilə gerçəkləşən sessiyada Bakı Dövlət Universiteti və Bakı Slavyan Universitetinin tələbələri iştirak ediblər.

Sessiyada institutun Əlyazmaların gigiyenası və bərpası laboratoriyasının müdiri Zaur Orucov "Əlyazmaların bərpası işinin təşkili" mövzusunda məruzə ilə çıxış edib. O, institutda qorunub saxlanılan əlyazmaların bərpası prosesində elmin nailiyyətlərindən istifadə etməklə onların texniki səviyyəsinin yüksəldilməsi, aşkar olunduğu qədim memarlıq abidələri, bu əlyazma abidələri üzərində həkk edilən işarələrin məna cəhətdən əhəmiyyətindən danışıb.

Alim tərəfindən müxtəlif vaxtlarda bərpa edilmiş bir sıra əlyazma nüsxələri əsasında hazırlanan slayd nümayiş etdirib.

Məruzə iştirakçılar tərəfindən maraqla qarşılanıb, tələbələri maraqlandıran suallar cavablandırılıb.

Teymur Elçin – 100

# Öyrətmək missiyalı poeziya



XIX əsrin ikinci yarısından təşəkkül tapan uşaq ədəbiyyatının sistemli şəkildə inkişafı üçün S.Ə.Şirvani, F.Köçərli, M.Ə.Sabir, A.Səhhət, S.S.Axundov, A.Şaiq, M.Seyidzadə, Ə.Cəmil, M.Dilbazi, X.Əlibəyli və başqaları yorulmadan yazıb-yaradıblar. Sələflərinin yaradıcılıq ənənələrini uğurla davam etdirən görkəmli şairlərimizdən Dövlət mükafatı laureatı, publisist, tərcüməçi Teymur Elçindir. Bu il ədibin anadan olmasının 100 illiyidir.

Teymur Süleyman oğlu Əliyev (Teymur Elçin) 28 mart 1924-cü ildə Şuşa şəhərində anadan olub. Uşaq ikən ailələri Bakıya köçür. O, paytaxtdakı 132 nömrəli orta məktəbdə oxuyur. 1941-ci ildə orta təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsinə qəbul olunur. Tələbə ikən Azərbaycan Radiosunda ştatdankənar müxbir və diktor işləyir. 1943–1945-ci illərdə II Dünya müharibəsində iştirak edir. Cəbhədən qayıtdıqdan sonra ali təhsilini davam etdirir və 1948-ci ildə universiteti bitirir.

Teymur Elçin ədəbi yaradıcılıqla bərabər bir çox məsul vəzifələrdə, o cümlədən respublika komsomol komitəsində çalışıb, 1957–1964-cü illərdə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin sədri, 1975–1988-ci illərdə respublika mədəniyyət nazirinin müavini olub. Beş çağırış Ali Sovetin deputatı seçilib. O, teleradio komitəsinə rəhbərlik etdiyi dövrlərdə Azərbaycan dilinin qorunmasına xüsusi həssaslıqla yanaşıb, eyni zamanda gənclərə qayğı göstərib.

Teymur Elçinin "İspaniya qəhrəmanlarına" adlı ilk şeiri 1938-ci ildə mətbuatda dərc olunub. Ümumilikdə 15-ə yaxın şeir kitabı işıq üzü görən şairin əsərləri keçmiş ittifaq respublikalarında çap edilib. Şair tərcümə ilə də məşğul olub. İ.V.Turgenev, S.Marşak, K.Çukovski, P.Voronko və başqalarının əsərləri Azərbaycan oxucularına Teymur Elçinin tərcüməsində çatdırılıb...

Yaradıcılığında uşaq dünyasına da xitab edən şair bir-birindən dəyərli əsərlər qələmə alıb. Müəllifin "Qar qız", "Qulaq asın, danışım", "Bahar, adlar, uşaqlar", "Sözlər, nəğmələr, nağıllar, laylalar", "Laylalar", "Şəkərim, duzum", "Torağayın nəğməsi", "Babalar, nənələr, nəvələr" və s. əsərləri uşaqların marağını cəlb edib.

Onun şeirlərində Azərbaycan dilinin məna çalarları ustalıqla ifadə olunur, misralar ahəngdar şəkildə bir-biri ilə uzlaşır. "Gəl, bahar" şeirində yazır:

*Gəl, bahar,*
*Çətir-çətir,*
*Güllər gətir,*
*Otaqlara*
*Dolsun ətir.*



"Mən kiməm?" şeirində isə müəllif incə bir vasitə ilə uşaqlara peşə və sənətləri sevdirir:

*Bilirsiniz mən kiməm?*
*Balaca bir həkiməm.*
*Trubkanı qulağıma*
*Bax beləcə taxaram.*
*Xəstələrə bax beləcə,*
*Bax beləcə baxaram.*

*Mən balaca bağbanam,*
*Siz tanıyan bağdanam.*
*Ağacları cərgə-cərgə,*
*Bax beləcə əkərəm.*
*Suyunu mən bax beləcə,*
*Bax beləcə tökərəm…*

Teymur Elçinin yaradıcılığında diqqətçəkən yanıltmaclar da çoxdur. Şeirlərində bir-birinə yaxın və oxşar sözlərin təkrarı maraqlı ahəngdarlıq yaradır. Uşaqlar həmin şeirləri oxuduqca cazibəsindən çıxa bilmir.

Şair şeirlərində həm də çox böyük ustalıqla uşaqları dərin məhəbbətlə sevən, onların qayğısına qalan böyüklərin bədii obrazını yaradıb. Bu əsərlərdə eyni zamanda Vətənə məhəbbət motivləri də maraq doğurur. "Ananın laylası" da bu silsilədəndir:

*Layla dedim balama,*
*İl keçə, ay dolana.*
*Balam gedə yuxuya,*
*Başına Ay dolana.*

Ədəbiyyatşünas-alim Zahid Xəlil "Söz adamı" məqaləsində yazır: "Teymur Elçin bir söz sərrafı kimi əsərlərində kəlmələri zərgər dəqiqliyi ilə seçir. Xalqın dilindən eşitdiyi sözləri ustalıqla oxucusuna öyrədirdi".

Şair yaradıcılığında sözə məsuliyyətlə yanaşıb. Fikri zərgər dəqiqliyi ilə cilalayaraq yeni sözlər yaradıb. Zəngin yaradıcılıq yolu keçən şairin şeirlərinin hər birinin ahəngində öyrətmək missiyası duyulur. "Kirpinin laylası", "Turacın laylası", "Siçan balası" kimi şeirlərində uşaq aləminin min bir məqamı diqqətə çatdırılır.

Görkəmli şairin əsərləri uşaqların könlünü oxşadığı kimi, musiqiyə də yatımlıdır. Onun neçə-neçə şeirinə mahnılar bəstələnib. O, Tofiq Quliyev, Rauf Hacıyev, Əşrəf Abbasov, Süleyman Ələsgərov, Oqtay Zülfüqarov, Oqtay Rəcəbov və başqa bəstəkarlarla birlikdə çalışıb. Fikrət Əmirovla şairi çox yaxın yaradıcılıq əlaqələri birləşdirib. "Göygöl", "Toy mahnısı", "De görüm, neyləmişəm?", "Gülür ellər" və s. kimi məşhur mahnılar bu uğurlu əməkdaşlığın bəhrəsidir.

Şair mənzum pyeslər də qələmə alıb. Əsərləri Gənc Tamaşaçılar Teatrında səhnələşdirilib.

Ədəbi və ictimai fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilən şair bir sıra təltiflərə layiq görülüb. "Qarabağ şikəstəsi" oratoriyasına görə bəstəkar Vasif Adıgözəlovla birgə 1990-cı ildə respublikanın Dövlət mükafatını alıb.

Əsərləri bu gün də uşaqlar tərəfindən sevilən Teymur Elçin 14 mart 1992-ci ildə vəfat edib.

**Savalan Fərəcov**

# "Qılınc və qələm" romanının özbəkcə nəşri maraqla qarşılanıb

Xəbər verdiyimiz kimi, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi ilə görkəmli Azərbaycan yazıçısı Məmməd Səid Ordubadinin (1872–1950) "Qılınc və qələm" tarixi romanı özbək dilində nəşr olunub. Əsəri özbək dilinə alimlər Nazira Aliyeva, Muhsin Hamidov və Rustam Komilov tərcümə ediblər. Kitabın redaktoru və ön söz müəllifi özbəkistanlı alim Abdulla Ulugovdur.



Dahi şair və mütəfəkkir Nizami Gəncəvinin həyat və yaradıcılığından, yaşadığı dövrün tarixi olaylarından bəhs edən roman Nizami irsinə rəğbət bəsləyən qardaş ölkənin elm və ədəbiyyat dairələrində də maraqla qarşılanıb.

Bir qədər əvvəl Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetində nəşrin təqdimatı olmuşdu. Bu günlərdə isə AMM tərəfindən Xarəzm vilayətindəki Ürgənc Dövlət Pedaqoji Universitetində (ÜDPU) kitabın təqdimatı keçirilib.

Mərkəzdən bildirilib ki, təqdimat universitetin Yusif Vəzir Çəmənzəminli adına Azərbaycan mədəniyyəti və ədəbiyyatı mərkəzində gerçəkləşib.

ÜDPU-nun prorektoru professor Sərdar Xocaniyazov giriş sözündə tarixi romanın özbək dilində nəşrini iki ölkə arasında ədəbi-mədəni əlaqələrə töhfə kimi qiymətləndirib.

AMM-in əməkdaşı Kərimulla Məmmədzadə də iki ölkə arasında ədəbi-mədəni əlaqələrdən söz açıb, bu istiqamətdə mərkəzin reallaşdırdığı layihələrdən danışıb.

Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin icraçı direktoru professor Erkin Nuriddinov və digər çıxış edənlər "Qılınc və qələm" romanının özbək dilində nəşrinin əhəmiyyətindən bəhs edərək əsərin Azərbaycanın tarixinin, mədəniyyətinin, ədəbiyyatının öyrənilməsi baxımından dəyərli mənbə olduğunu vurğulayıblar.

Qeyd edək ki, kitab AMM tərəfindən Özbəkistanın aparıcı kitabxanalarına, ali təhsil ocaqlarına paylanılacaq.

# Mədəniyyət işçisinin zəngin səs-sənət arxivi



Lənkəran rayonunun Cil kənd sakini Əli Əkbərovun qeyri-adi hobbisi var. Hələ uşaqlıqdan musiqiyə, xüsusilə də muğam ifaçılığı sənətinə maraq göstərən Əli uzun illərdir qrammofon vallarını toplamaqla məşğuldur.

O, musiqi sahəsinə həvəsin ona anasından keçdiyini deyir: "Anam klassik Azərbaycan musiqisinə yaxşı bələd idi. Evdə iş-güclə məşğul olanda görkəmli xanəndələrimizin muğamlarını astaca zümzümə edərdi. Elə həmin zümzümənin mənə həyat yolumu müəyyənləşdirməkdə müstəsna rolu olub".

Əli orta məktəbi bitirdikdən sonra Bakıda Mədəni-Maarif Texnikumuna daxil olub. Qrammofon vallarını toplamağa da həmin dövrdən başlayıb. Hazırda qonşu Şağlaser kəndindəki Sənətkarlıq evində çalışan Əli Əkbərovun evindəki şəxsi arxivində Azərbaycanın 100-dən çox muğam ifaçısının və müğənnisinin səsləri yazılmış 1200-ə yaxın qrammofon valı var.

Əlinin sözlərinə görə, tələbəlik illərində sevdiyi sənətkarların evlərini qapı-qapı gəzməklə bu zəngin musiqi xəzinəsini əldə etməyə nail olub: "İnanın ki, bəzən bir sənətkarın evinə dəfələrlə getməklə istəyimə nail olmuşam. Cibimdəki son qəpikdən belə keçərək mağazadan sevdiyim muğam ifaçısının valını almışam".

Görkəmli xanəndələrdən Cabbar Qaryağdıoğlunun, Məşədi Məhəmməd Fərzəliyevin, Keçəçi oğlu Məhəmmədin və digərlərinin 1904, 1905, 1912-ci illərdə Varşava, Riqa, Vilnüs kimi şəhərlərdə yazılmış valları da bu gün Əli Əkbərovun şəxsi arxivindədir. Deyir ki, onda olan bəzi nadir valları respublikanın hər hansı bir arxivində tapmaq qeyri-mümkündür: "Xoşbəxtəm ki, Şövkət Ələkbərova, Gülağa Məmmədov, Fatma Mehrəliyeva, Tükəzban İsmayılova, Rübabə Muradova və onlarla digər görkəmli sənət xadimləri ilə şəxsən görüşüb söhbətləşmək, onların canlı ifasını eşitmək mənə qismət olub".



Əli evinin bir otağını vallara, kitablara ayırıb. Son illər Azərbaycanda muğam sənətinin inkişafı üçün həyata keçirilən layihələri yüksək qiymətləndirən mədəniyyət işçisi gənc xanəndələrimizin öz sələflərindən hələ çox mətləbləri öyrənməli olduqlarını bildirir: "Qoy cavan ifaçılarımız arxayınlaşmasınlar. Klassik muğam ifaçılarımızın hər birinin dəst-xətti ayrıca bir məktəbdir. Onların təcrübəsindən öyrənmək, əxz etmək isə yalnız fayda verə bilər".

Onu da bildirək ki, hazırda Əli Əkbərovun kolleksiyası həm də şəxsi muzey kimi tanınır. Öyrəndik ki, yazıçı-jurnalist, Əməkdar mədəniyyət işçisi Sədaqət Kərimova unudulmaz sənətkarımız, Əməkdar artist Fatma Mehrəliyevanın sorağı ilə bu yaxınlarda Cil kəndində Əlinin qonağı olub və axtardığı qrammofon vallarını burada tapıb.

Tanınmış diktor, Xalq artisti Eldost Bayram isə Əli Əkbərovun xidmətlərini yüksək dəyərləndirərək yazır: "Əli Azərbaycan mədəniyyəti və incəsənətinin təbliği sahəsində çalışanlar içərisində çıraqla axtarılmağa və qiymətləndirilməyə layiq olan insanlardan biridir".

Əlavə edək ki, Ə.Əkbərov Sənətkarlıq evində çalışmaqla yanaşı, "Babalar" folklor kollektivinin üzvü kimi tez-tez rayonda keçirilən tədbirlərdə də çıxış edir.

Bəli, mədəniyyət işçisi Əli Əkbərovun min bir əziyyətlə topladığı vallar sənət yaddaşımızın saxlanc yeridir. Bu sərvəti qorumalı və gələcək nəsillərə yadigar qoymalıyıq. Bunu biz etməsək, nə vaxtsa, uzun zamanlardan sonra bu valların da sorağı bir çox mədəni sərvətlərimiz kimi yaxın-uzaq ölkələrin muzeylərindən, sərgi salonlarından, şəxsi kolleksiyalarından gələr...

**Ağaddin Babayev**
**Lənkəran**

# Birömürlük Azad musiqisi

Onun ömrü musiqiyə həsr olundu. Bu yolda məqsəd və inamı onu daim uğura apardı.

Əməkdar incəsənət xadimi, professor Azad Əliyev (1951–2014) musiqinin içində göz açan, daim onunla nəfəs alan əsl sənətkar idi...

Azad Sabir oğlu Əliyev 1951-ci il martın 29-da Bakı şəhərində anadan olmuşdur. 1974-cü ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını (indiki Bakı Musiqi Akademiyası – BMA) fortepiano ixtisası üzrə (professor K.Səfərəliyevanın sinfi) bitirdikdən sonra, vokal qabiliyyətinə malik olduğundan özünü bu sahədə də sınaqdan keçirmək istəyi ilə vokal şöbəsinə, İ.A.Lvoviçin sinfinə daxil olur. Hər iki müəllimin onun peşəkar musiqiçi kimi formalaşmasında böyük rolu olmuşdur. O, 1980-ci ildə konservatoriyada vokal ixtisası üzrə təhsilini də başa vurur.

Pedaqoji fəaliyyətə 6 nömrəli musiqi məktəbində başlayan Azad Əliyev həmçinin A.Zeynallı adına Orta İxtisas Musiqi Məktəbində və Sumqayıt Orta İxtisas Musiqi Məktəbində də çalışmışdır. 1972–1980-ci illərdə Respublika Sarayının (indiki Heydər Əliyev Sarayı) baş səs rejissoru olmuşdur. Sumqayıt Orta İxtisas Musiqi Məktəbində bir müddət müdir müavini vəzifəsində də işləmiş, orada ilk kamera orkestri yaratmış və bu orkestrlə müxtəlif konsertlərdə çıxış etmişdir. 90-cı illərdə BMA-nın Solo oxuma və opera hazırlığı kafedrasının dosenti olan A.Əliyev 1992-ci ildən Ş.Məmmədova adına Opera studiyasında pedaqoji fəaliyyət göstərmiş, 1994-cü ildən ömrünün sonuna qədər studiyanın bədii rəhbəri olmuşdur. O, opera hazırlığı sinfində 20-dən artıq məzun yetişdirmişdir.

Azad Əliyev elə bir ailədə həyata göz açmışdı ki, burada musiqiyə böyük sevgi bəslənilirdi. O, musiqiçilərin mühitində bir fərd kimi formalaşmış, şəxsiyyət olaraq yetişmişdir. Ailələrində hamı musiqiçi idi. Atası – Azərbaycanda violonçel ifaçılıq sənətinin bünövrəsini qoymuş mahir ifaçı, həssas pedaqoq, Xalq artisti, professor Sabir Əliyev, anası – gözəl pianoçu, pedaqoq, dövrünün peşəkar konsertmeysterlərindən olan Əməkdar incəsənət xadimi, professor Elmira Əliyeva, bacısı Leyla – anasının yolunu davam edən gözəl pianoçu, pedaqoq və konsertmeyster. Qeyd edək ki, Azad Əliyevin həyat yoldaşı Zemfira Əliyeva da istedadlı pianoçu və gözəl pedaqoqdur. Əliyevlər ailəsinə tez-tez görkəmli musiqiçilər gələrdilər. Sabir Əliyevin ən yaxın dostları arasında olan dünyaşöhrətli violonçel ifaçısı Mstislav Rostropoviç bu evin həmişə sevilən qonaqlarından idi.



Azad Əliyev musiqinin bir çox sahələrində özünü sınamış və uğur qazanmışdır. Bu, ilk növbədə, onun fitri istedadının təzahürü idi. O, parlaq pianoçu kimi bir sıra müsabiqələrdə iştirak etmişdir. Elə bu səbəbdən vokal ifaçılarla işləyərkən onun konsertmeysterə ehtiyacı olmurdu. 1981–1985-ci illərdə Xalq artisti, violin ifaçısı S.Qəniyevlə birgə pianoçu kimi keçmiş SSRİ-nin respublikalarında konsertlərdə çıxış etmişdir.

Tələbə ikən Azad müəllimin fortepiano ixtisası üzrə keçdiyi dərslərində oturardım. Bir tələbəyə verdiyi əsəri izah edərkən belə onu avaz edərək anlatması, musiqinin həssas bölmələrini dinləndirməsi bu insanın necə də musiqi vurğunu, hərtərəfli istedada malik olmasını göstərirdi. O, 1999-cu ildən Bülbül adına Orta İxtisas Musiqi Məktəbində kamera ansamblı və müşayiət sinfinin müəllimi olaraq çalışmışdır.

Azad Əliyevi dirijorluq daha çox maraqlandırırdı. Uşaqlıqdan dahi maestro Niyazinin məşqlərinin daimi tamaşaçısı olması, Respublika Sarayında səs rejissoru kimi fəaliyyəti, eləcə də pedaqoq kimi iş təcrübəsi toplaması, dünya musiqi ədəbiyyatı sahəsində böyük bilikləri illər sonra onun diqqətini dirijorluq sənətinə yönəldir. Xüsusi dirijorluq məktəbi keçməsə də, bu ixtisas üzrə diplomu olmasa da, o öz gücünü, məhəbbətini bu sənətə həsr edir. Azad Əliyevin ömrünün sonuna qədər böyük zövq və dərin sevgi duyduğu dirijorluq interpretasiyası ona bu sənətdə bir çox nailiyyətlər qazandırmışdır. Bu sırada C.Verdinin "Rekviyem", V.A.Motsartın "Rekviyem", L.Bernstaynın "Vessayd əhvalatı", Ü.Hacıbəylinin "Arşın mal alan" operettasının Vyanada alman dilində quruluşunu və digərlərini qeyd etmək olar. Maestronun dirijorluq texnikası özünəməxsusluğu, həssaslığı ilə seçilirdi. O, ifa olunan əsəri bütün cismi ilə yaşayırdı. Musiqiyə dərindən bağlı olan, onu bütün qəlbi, varlığı ilə duyan Azad Əliyevin dirijorluğu onun ruhunun sanki qidası idi.

O, 2006-cı ildən həyatının sonuna qədər "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin Niyazi adına Simfonik orkestrinin bədii rəhbəri və baş dirijoru olmuşdur. 2012-ci ildə professor və Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür.

Həyat yoldaşı Zemfira Əliyevanın xatirələrindən: "O, özünə də, orkestr üzvlərinə də qarşı çox tələbkar idi. Musiqiyə, konsertlərə məsuliyyətlə yanaşmasıyla o, həm musiqiçilərə, həm də tələbələrinə nümunə olurdu. Onun istər öz orkestr üzvləri, istərsə də ilk dəfə birlikdə ifa etdiyi ifaçılarla ünsiyyət yaratmaq bacarığını xüsusi olaraq qeyd etmək istərdim. Dirijorla ifaçılar arasında olan münasibətlər xüsusilə zərif və həssas xarakter daşıdığına görə son dərəcə nəzakətli olmağı tələb edir. Partitura ilə bağlı zəngin biliklərindən istifadə edən, eləcə də ifa etdiyi bəstəkarın əksər əsərlərinə, hansı məktəbi təmsil etdiyinə dərindən bələd olan maestro onun öz təfsirlərinin də "yaşamaq" hüququna malik olmasını sübut edirdi. Qeyd edim ki, orkestr üzvləri heç də həmişə başqa ölkədən gələn dirijoru qəbul edib, ifa olunan əsəri məhz onun "gördüyü" kimi ifa edə bilmir. Bu mənada bir sıra ölkələrə qastrol səfərlərinə getməsini və müxtəlif orkestrlərlə işləməli olduğunu nəzərə alsaq, Azadın bu xüsusiyyətinin nə dərəcədə qiymətli olduğunu təsəvvür edə bilərik. Belə səfərlər arasında onun Yunanıstan, İsveç, Almaniya, Avstriya, Rusiya və daha nə qədər ölkələrdə verdiyi konsertləri qeyd etmək olar...".

Azad Əliyev haqqında çox danışmaq olar. Onun sənəti ilə yanaşı, insani keyfiyyətləri də yüksək səviyyədə idi. Hamı ona böyük hörmət göstərirdi. Maestronun hər doğum günündə tələbələri, həmkarları onun şərəfinə konsert təşkil edirlər. Musiqi sənətinin incəliklərinə dərindən bələd olan bu insan əsl ziyalı kimi özünə böyük rəğbət qazanmışdı. O, həyatını, ömrünü, sənətini sevə-sevə yaşadı. Azad Əliyevdən bizi illər ayırır. Lakin biz onu hər zaman sonsuz ehtiramla yad edəcəyik. Çünki o, sənəti ilə əbədiyyət qazanıb...

**Aynur İsgəndərova**
**BMA-nın Musiqi tarixi kafedrasının müəllimi**

# Milli Kitabxanada yubilyar ədiblərlə bağlı sərgilər

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında bu il yubileyləri qeyd olunan tanınmış ədiblərə həsr edilmiş sərgilər açılıb.

Xalq yazıçısı, ədəbiyyatşünas, pedaqoq, ictimai xadim İsmayıl Şıxlının (1919–1995) anadan olmasının 105 illiyi münasibətilə təşkil edilən sərgidə müəllifin əsərləri, dünya ədəbiyyatından tərcümələri, tərtib və redaktə etdiyi kitablar, haqqında yazılmış Azərbaycan və müxtəlif dillərdə ədəbiyyatlar nümayiş olunub.

***

Görkəmli şair-dramaturq, mədəniyyət xadimi Cəfər Cabbarlının (1899–1934) 125 illiyinə həsr olunan sərgidə müəllifin əsərləri, tərcümələri, həyat və yaradıcılığı haqqında Azərbaycan və xarici dillərdə kitablar yer alıb.

***

Xalq yazıçısı, nasir, dramaturq, ədəbi tənqidçi, tərcüməçi Mehdi Hüseynin (1909–1965) 115 illiyi münasibətilə təşkil edilən sərgidə ədibin əsərləri, dünya ədəbiyyatından tərcümələri və redaktə etdiyi, haqqında yazılmış kitablar nümayiş olunub.

***

Kitabxanada görkəmli pedaqoq, maarifçi, şair və yazıçı Məhəmməd Tağı Sidqinin (1854–1903) 170 illik yubileyi münasibətilə də sərgi təşkil olunub. Sərgidə ədibin əsərləri, həyatı, pedaqoji fəaliyyəti haqqında, Azərbaycan ədəbi və maarifçi fikrin inkişafına verdiyi töhfələrdən bəhs edən ədəbiyyatlar yer alıb.

## Pressfakt




# İllər öncə qəzetlər nədən yazırdı?

## Milli Kitabxananın dövri mətbuat arxivindən (11)

Bu gün Azərbaycan incəsənəti, xüsusilə musiqi sənəti dünyanın müxtəlif ölkələrində uğurla təqdim və təbliğ olunur. İfaçılarımız məşhur səhnələrdə, konsert zallarında rəğbətlə qarşılanır. İllər öncə, Sovet İttifaqı tərkibində olduğumuz dövrdə dünyaya çıxış imkanlarımız indiki kimi geniş deyildi. Amma buna rəğmən Azərbaycan musiqisi, milli rəqs sənətimiz təqdim olunduğu yerlərdə özündən söz etdirməyi bacarırdı. Belə uğurlu qastrol səfərlərindən biri 1988-ci ilin martında Amerika Birləşmiş Ştatlarına olmuşdu.

Mətbuat xronikasından növbəti seçməmiz həmin qastrol barədə SİTA (Sovet İttifaqı Teleqraf Agentliyi) müxbirinin hazırladığı və "Kommunist" qəzetində dərc olunan reportajdır. Bu, "soyuq müharibə" zamanında mədəniyyətin xalqlar arasında dialoqa, anlaşmaya necə zəmin yaratdığının da bir göstəricisi idi...

Mətndə dövrün orfoqrafiyası saxlanılıb.

***

### ABŞ-da Azərbaycan artistlərinin müvəffəqiyyəti

Nyu-York 19 mart (SİTA). Sinsinnati şəhərindən (Ohayo ştatı) amerikalı C.Mahsarland Sovet Azərbaycanından bir qrup artistin çıxışını vəcdlə belə qiymətləndirmişdir: "Fantastik, çox gözəl tamaşa". Azərbaycan SSR xalq artisti Polad Bülbüloğlunun rəhbərliyi altında kiçik bir kollektivin konsertləri Sinsinnatidə açılmış "SSRİ: insan, ailə, cəmiyyət" sərgisinin tərkib hissəsi olmuşdur. Amerika şəhərlərində doqquz aylıq səyahətini davam etdirən bu səyyar ekspozisiya Kanzasa yola düşmüşdür. Azərbaycan artistləri isə Sinsinnatidən Nyu-Yorka gəlmişlər. Onlar burada bir neçə konsert verəcəklər. SİTA-nın müxbiri A.Şktov qrupun rəhbəri ilə görüşmüş və səfər haqqında təəssüratını söyləməyi ondan xahiş etmişdir.

Polad Bülbüloğlu demişdir: Bizim iştirak etdiyimiz sərginin başlıca məqsədi ölkələrimizin xalqları arasında əlaqələrin inkişafına, qarşılıqlı anlaşmanın möhkəmlənməsinə kömək etməkdir. Buna görə də biz amerikalılarla həvəslə görüşür, əlavə çıxışlar haqqında onların çoxlu xahişinə həmişə əməl edirik. Konsertlər sovet artistlərini dəvət etmiş iri "Proktar and qambl" kimya şirkətinin əməkdaşları, sərgi ilə eyni vaxtda Sinsinnatidə keçirilmiş bütün Ohayo ştatının xarici dillər müəllimlərinin konfransı iştirakçıları üçün xüsusilə uğurlu keçmişdir. Bu müəllimlər arasında rus filologiyası üzrə mütəxəssislər də olmuşlar.

Ekspozisiya çərçivəsində konsert proqramını bütünlüklə yerinə yetirmək və əlavə sifarişləri ödəmək üçün biz bəzən gündə dörd dəfə çıxış etməli olurduq. Lakin bu, müvafiq səmərə də verirdi. Sərgi müdiriyyətinin bildirdiyinə görə, məhz konsertlər başlayana yaxın tamaşaçı daha çox toplaşırdı. Rəylər kitabında bir dənə də olsun mənfi rəy yox idi, amma incəsənətimiz, ölkəmiz barəsində çoxlu səmimi söz var idi.

Rəyləri birlikdə nəzərdən keçiririk.

Karall Fray yazır: "Bu çox gözəldir ki, siz ölkəmizə gəlmiş və şəhərimizə gözəl və yaxşı tərtib olunmuş sərgi gətirmişsiniz. Ümidvarıq ki, bir zaman sizin çox böyük və gözəl ölkənizə gələcəyik".

Rot Kirbi belə hesab edir: "Biz iki böyük xalqımız arasında daha yaxşı anlaşmaya və etimada kömək göstərmək üçün bu cür mədəni proqramlar mübadiləsini daha çox keçirməliyik".

C.Qrikin fikrincə, "insanlar arasında anlaşma dil anlaşmasından daha vacibdir. Gələcəkdə bir-birimizə daha yaxın olmağa çalışmalıyıq".

Co Prossman yazır: "Zənnimcə, folklor musiqisi və rəqsləri sərginin tamaşaçılarına ən çox zövq vermişdir".

Culi Lilinll artistlərə və bütün sovet adamlarına sülh, ümidlər və səadət arzulayır.

Amerikalılar, demək olar, hər konsertdən sonra xalq musiqisi alətlərinə böyük maraq göstərirdilər. Musiqi alətlərinə daha yaxşı baxmaq və hətta onlara toxunmaq üçün bizə yaxınlaşır, bu alətlərin adlarını soruşurdular. Xalq çalğı alətləri ansamblının tərkibinə tar, kamança, nağara, Azərbaycan qarmonu və klarneti daxildir. Beş musiqiçinin hamısı əsl virtuozdur. Onların hər biri nəinki müşayiət edir, həm də solo hissəsini çalır. Rəqqaslar Azərbaycan Dövlət rəqs ansamblının solistləridir. Onlardan üç nəfəri respublikanın əməkdar artisti kimi yüksək ad daşıyır. SSRİ xalq artisti Zeynəb Xanlarovanın çıxışları böyük müvəffəqiyyətlə keçmişdir. P.Bülbüloğlunun çıxışları daim "proqramın zirvəsinə" çevrilirdi. Bunu yəqin etmək üçün yerli qəzetlərdə konsertlər haqqında reklam elanlarına baxmaq kifayətdir.

*"Kommunist" qəzeti,*
*20 mart 1988-ci il*

## Xatirə təqvimi

### 23 – 31 mart

**23 mart 1915** – Tanınmış rəqqas, Xalq artisti Əlibaba Əbdül oğlu Abdullayev (1915 – 10.10.1980) anadan olub. Dövlət Mahnı və Rəqs Ansamblının rəqs qrupuna rəhbərlik edib. Filmlərdə rəqslərin quruluşçusu olub.

**23 mart 1920** – Görkəmli bəstəkar, Xalq artisti, professor Əşrəf Cəlal oğlu Abbasov (1920 – 8.2.1992) Şuşada anadan olub. İlk milli uşaq baleti ("Qaraca qız"), musiqili komediyalar, simfonik əsərlər və mahnıların müəllifidir. Azərbaycan Dövlət Konservatoriyasının rektoru (1953–1957) olub.

**23 mart 1929** – Əməkdar artist, vokalçı Firuzə Ramazan qızı Muradova (1929–1987) Bakıda doğulub. Opera və Balet Teatrının solisti olub.

**23 mart 1930** – Əməkdar artist Şəfiqə Şirməmməd qızı Axundova (1930–2005) Lənkəranda doğulub. Azərbaycan Dövlət Kukla Teatrının aktrisası olub.

**23 mart 1942** – Əməkdar artist Rza Darablı (Rza Nəcəfəli (Nəcəfqulu) oğlu Hüseynov; 1883–1942) vəfat edib. 1919-cu ildən Azərbaycan Dövlət Teatrında aktyor kimi çıxış edib, filmlərə çəkilib.

**23 mart 1957** – Əməkdar mədəniyyət işçisi, şair İsmayıl Cabir oğlu Dadaşov (1957 – 22.10.2020) anadan olub. "Azərbaycanfilm"də musiqi redaktoru işləyib.

**24 mart 1872** – Yazıçı, dramaturq, publisist, Əməkdar incəsənət xadimi Məmməd Səid Hacağa oğlu Ordubadi (1872 – 1.5.1950) Naxçıvanın Ordubad şəhərində doğulub. "Dumanlı Təbriz", "Qılınc və qələm", "Döyüşən şəhər" və s. əsərləri ilə Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisi sayılır.

**24 mart 1927** – Teatr rejissoru, Əməkdar incəsənət xadimi Məbud İbrahim oğlu İsmayılzadə (1927 – 17.9.2004) Zərdab rayonunda doğulub. Lənkəran Dram Teatrının ilk bədii rəhbəri və direktoru olub.

**24 mart 1938** – Xalq artisti, görkəmli teatr və kino aktyoru Həsənağa Səttar oğlu Turabov (1938 – 23.2.2003) anadan olub. 1960-cı ildən Akademik Dram Teatrında çalışıb, teatra rəhbərlik (1987–2001) edib. Filmlərdə yaddaqalan obrazlar yaradıb.

**25 mart 1897** – Teatrşünas, publisist, Əməkdar mədəniyyət işçisi Qulam Məmməd oğlu Məmmədli (1897 – 18.11.1994) Təbrizdə doğulub. "Azərbaycan teatrının salnaməsi"ni yazıb.

**25 mart 1905** – Əməkdar artist Heydər Məşədi Aslan oğlu Şəmsizadə (1905–1981) Şuşada doğulub. Aşqabadda (Türkmənistan) "Arşın mal alan"ı səhnəyə qoyub, Ağdam teatrının baş rejissoru olub.

**25 mart 1907** – Şair Almas İldırım (İldırım Əbdülməhəmməd oğlu Almaszadə; 1907 – 14.1.1952) Bakıda doğulub. Milli ruhlu şeirlərinə görə 1930-cu ildə Türkmənistana sürgün edilib. 1933-cü ildə İrana, oradan da Türkiyəyə mühacirət edib. Elazığda vəfat edib.

**25 mart 1933** – Şair, dramaturq Rüfət Zülfüqar oğlu Əhmədzadə (1933 –15.12.1988) Bakıda anadan olub. "Bildirçinin bəyliyi", "Zarafatsız zarafat", "Sonuncu məhəbbət" və s. komediyaların, satirik şeirlərin müəllifidir.

**26 mart 1893** – Opera müğənnisi, Xalq artisti Fatma Səttar qızı Muxtarova (1893 – 19.10.1972) Cənubi Azərbaycanın Urmiya şəhərində doğulub. 1938-ci ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olub.

**26 mart 1902** – Əməkdar artist, xanəndə Yavər Əli qızı Kələntərli (1902 – 5.2.1979) Şamaxıda anadan olub.

**26 mart 1910** – Görkəmli aktyor, SSRİ Xalq artisti Ələsgər Hacıağa oğlu Ələkbərov; 1910 – 31.1.1963) anadan olub. 1933-cü ildən Akademik Milli Dram Teatrında fəaliyyət göstərib. Filmlərdə unudulmaz obrazlar yaradıb.

**26 mart 1910** – Yazıçı-dramaturq Sabit Rəhman (Sabit Kərim oğlu Mahmudov; 1910 – 21.9.1970) Şəkidə anadan olub. Pyesləri: "Toy", "Xoşbəxtlər", "Əliqulu evlənir", "Nişanlı qız" və s. "Əhməd haradadır?", "Ulduz" filmlərinin ssenari müəllifidir.

**26 mart 1919** – Əməkdar artist Əminə Abbas qızı Nağıyeva (1919–1977) anadan olub. Akademik Milli Dram Teatrında çalışıb, filmlərə çəkilib.

**26 mart 1926** – Tarixçi alim, AMEA-nın müxbir üzvü Oqtay Əbdülkərim oğlu Əfəndiyev (1926–2013) Bakıda anadan olub.

**27 mart 1917** – Əməkdar artist, vokalçı Mariya Sergeyevna Titarenko (1917 – 26.9.2002) Moskvada doğulub. Opera və Balet Teatrının solisti olub.

**27 mart 1927** – Məşhur violonçel ifaçısı, dirijor, SSRİ Xalq artisti Mstislav Leopoldoviç Rostropoviç (1927 – 27.4.2007) Bakıda doğulub.

**27 mart 1928** – Əməkdar mədəniyyət işçisi Hüseyn Həsən oğlu Əhmədov (1928–2016) anadan olub. Azərbaycan Dövlət Kukla Teatrının ədəbi dram hissə müdiri işləyib.

**27 mart 1937** – Kino rəssamı Fikrət İbrahim oğlu Əhədov (1937 – 2.11.1994) Bakıda anadan olub. "Qərib cinlər diyarında", "Yol əhvalatı", "Kişi sözü" və s. filmlərə bədii tərtibat verib.

**27 mart 1986** – Görkəmli aktyor Səməndər Mənsim oğlu Rzayev (2.1.1945 – 1986) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, filmlərdə unudulmaz obrazlar qalereyası yaradıb.

**27 mart 2020** – Xalq artisti, müğənni Rauf Yusif oğlu Babayev (30.12.1937 – 2020) vəfat edib. 1960–70-ci illərdə "Qaya" kvartetinin solistlərindən biri kimi məşhurlaşıb.

**28 mart 1886** – SSRİ Xalq artisti Sidqi Ruhulla (Ruhulla Fətulla oğlu Axundov; 1886 – 5.5.1959) Bakının Buzovna kəndində doğulub. Tiflisdə Azərbaycan teatrının inkişafında, Təbrizdə milli teatrın yaradılmasında xidmətlər göstərib. 1924-cü ildən Azərbaycan Dövlət Dram Teatrında çalışıb, filmlərdə çəkilib.

**28 mart 1895** – Tanınmış ədəbiyyatşünas, tərcüməçi Əziz Şərif (Əziz Qurbanəli oğlu Şərifzadə; 1895 – 1.6.1989) Naxçıvan şəhərində doğulub. Moskva Dövlət Universitetinin professoru olub.

**28 mart 1896** – Əməkdar artist Əli Fətulla oğlu Şahsabahlı (1896–1973) Tiflisdə doğulub. İrəvan Dövlət Azərbaycan Dram Teatrında çalışıb.

**28 mart 1924** – Şair, tərcüməçi, Dövlət mükafatı laureatı Teymur Elçin (Teymur Süleyman oğlu Əliyev; 1924 – 14.3.1992) Şuşa şəhərində anadan olub. Uşaqlar üçün əsərlərin müəllifidir, rus ədəbiyyatından tərcümələr edib. Respublika Televiziya və Radio Verilişləri Komitəsinin sədri işləyib.

**28 mart 1940** – Əməkdar rəssam, dekorativ-tətbiqi sənət ustası Ağasaleh Məmmədhüseyn oğlu Nuriyev (1940 – 23.2.2023) Bakıda anadan olub.

**29 mart 1938** – Əməkdar mədəniyyət işçisi Marat Mikayıl oğlu İsgəndərov (1938 – 19.6.2013) anadan olub. "Azərbaycanfilm"də səs operatoru işləyib.

**29 mart 1939** – Yazıçı-dramaturq Süleyman Sani Axundov (3.10.1875 – 1939) vəfat edib. Yazıçının "Qorxulu nağıllar" adı altında toplanan hekayələri Azərbaycan uşaq ədəbiyyatının klassikası sayılır.

**29 mart 1946** – Əməkdar artist Nazir Kərim oğlu Əliyev (1946–1997) Lənkəranda anadan olub. Sumqayıt, Naxçıvan, Lənkəran teatrlarında çalışıb, filmlərə çəkilib.

**29 mart 1951** – Əməkdar incəsənət xadimi, pianoçu, dirijor Azad Sabir oğlu Əliyev (1951 – 30.3.2014) Bakıda doğulub.

**30 mart 1908** – Əməkdar incəsənət xadimi, rəssam Şamil bəy Həsən oğlu Qazıyev (1908–1980) İrəvan şəhərində doğulub.

**30 mart 1949** – Xalq artisti, xanəndə Səfa Hüseyn oğlu Qəhrəmanov (1949 – 5.5.2008) Ağcabədi rayonunun Minaxorlu kəndində anadan olub.

**31 mart 1861** – Azərbaycan xanəndəlik sənətinin görkəmli nümayəndəsi, bənzərsiz muğam ifaçısı, Xalq artisti Cabbar Qaryağdıoğlu (1861 – 20.4.1944) Şuşada doğulub. 1906-1912-ci illərdə Kiyev, Moskva və Varşavada ilk azərbaycanlı xanəndə olaraq ifası qrammofon valına yazılıb.

**31 mart 1936** – Xalq artisti, bəstəkar Rafiq Fərzi oğlu Babayev (1936 – 19.3.1994) anadan olub. "Cəngi" folklor-caz kollektivinin yaradıcısı olub. Filmlərə ("Anlamaq istəyirəm", "Cin mikrorayonda") musiqi bəstələyib.

**31 mart 1948** – Əməkdar rəssam İsmayıl Əsəd oğlu Məmmədov (1948 – 12.12.2016) anadan olub. Akademik Milli Dram, Musiqili Komediya teatrlarında quruluşçu rəssam işləyib.

**Hazırladı: V.Orxan**

№23-24 (2089)
29 mart 2024
www.medeniyyet.az

# Türkiyə Mədəniyyət Yolu Festivalı bu il 16 şəhəri əhatə edəcək

## 8 ay ərzində 600 məkanda 6 min tədbir keçiriləcək

Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə 2021-ci ildə əsası qoyulan və qısa müddətdə ölkənin zəngin mədəni irsini, incəsənətini, tarixi məkanlarını, bölgədən-bölgəyə özünəməxsus kulinariyasını və s. əhatə edən ən böyük layihəyə çevrilən Mədəniyyət Yolu Festivalı bu il dördüncü dəfə keçiriləcək. İlk dəfə İstanbulda Beyoğlu Mədəniyyət Yolu Festivalı ilə başlayan, 2022-ci ildə beş, 2023-də isə on şəhərdə gerçəkləşən "Mədəniyyət Yolu"nun bu il hədəfi daha genişdir.

Mədəniyyət və turizm naziri Mehmet Ersoy martın 25-də İstanbuldakı Atatürk Mədəniyyət Mərkəzində keçirilən təqdimatda layihənin 2024-cü il təqvimini açıqlayıb.

Nazir bildirib ki, Türkiyənin ən böyük və zəngin brend layihələrindən biri olan Mədəniyyət Yolu Festivalı ötən üç ildə böyüməyə davam edərək müvəffəqiyyət hekayəsi yazıb. 2023-cü ildə festivalın Avropa Festivallar Birliyinə üzv qəbul edildiyini də diqqətə çatdıran Mehmet Ersoy bu il "Mədəniyyət Yolu"nun Türkiyənin 7 bölgəsindəki 16 şəhərdən keçəcəyini vurğulayıb.

"2021-ci ildə 2 min sənətçi ilə başladığımız festivala keçən dövr ərzində Türkiyədən və dünyadan fərqli sənətçi və sənət qurumlarını daxil etdik. 2023-cü ilə qədər festivala qatılan sənətçilərin sayı 34 minə çatdı. Bu il isə hədəfimiz 40 min sənətçidir", – deyə o bildirib.

Nazir festival məkanlarının və tədbirlər sayının da ildən-ilə artdığını vurğulayaraq, 2024-cü ildə ümumilikdə 600 məkanda 6 minə yaxın tədbir planlaşdırdıqlarını deyib. Qeyd edək ki, 2023-cü ildə festival çərçivəsində 5 min tədbir gerçəkləşmişdi.




### Festival 13 apreldə Adanada başlayacaq

Nazir bildirib ki, bu il 8 ay davam edəcək Mədəniyyət Yolu Festivalının proqramı 13-21 aprel tarixlərində Adanada Portağal Çiçəyi Karnavalı ilə başlayacaq.

Festivalın marşrutu daha sonra 25 may – 2 iyun tarixlərində Şanlıurfa, 1–9 iyunda Bursa, 8-16 iyunda Samsun, 22-30 iyunda Trabzon, 29 iyun – 7 iyul tarixlərində Van, 3–11 avqustda Nevşehir, 17–25 avqustda Ərzurum, 31 avqust – 8 sentyabr tarixlərində isə Çanaqqaladan keçəcək.

Qaziantep Beynəlxalq Qastronomiya Festivalının (GastroAntep) da daxil olduğu Qaziantep Mədəniyyət Yolu Festivalı 14–22 sentyabr tarixlərində keçiriləcək. Ardınca "Mədəniyyət Yolu" 21–29 sentyabrda paytaxt Ankarada və eyni tarixdə Konyada davam edəcək. Ənənəvi Konya Mistik Musiqi Festivalı, ötən il olduğu kimi, yenə Mədəniyyət Yolu Festivalının proqramına daxil ediləcək.

İstanbul Mədəniyyət Yolu Festivalının bu il 28 sentyabr – 6 oktyabr tarixlərində keçirilməsi nəzərdə tutulub. "Mədəniyyət Yolu" daha sonra 12–20 oktyabrda Diyarbəkirdə, 26 oktyabr – 3 noyabr tarixlərində İzmirdə davam edəcək, 2-10 noyabrda isə Antalyada başa çatacaq.

Güvenç Özəl, Refik Anadol kimi rəssamların əsərləri sərgilənəcək.

Süni intellekt alqoritmi ilə hazırlanan "Atatürk Mədəniyyət Yolunda" adlı rəqəmsal tətbiq də builki festivalın yeniliklərindəndir. "Atatürk bu gün sağ olsaydı, festivalın hansı məkanlarında şəkilləri çəkilərdi" sualına cavab verən rəqəmsal sərgi açılacaq.

Mədəniyyət və turizm naziri bu il festivala qatılacaq əcnəbi sənətçi və qrupların da sırasının geniş olacağını deyib: "Beynəlxalq əlaqələr və səfirliklərimizlə apardığımız danışıqlar nəticəsində həm vizual sənət, həm də ifaçılıq sənəti sahəsində Avropa, Latın Amerikası, Asiya və Afrika ölkələri ilə əməkdaşlıq edirik. Bu




il Mədəniyyət Yolu Festivalında Berlin Simfonik Orkestri, Estoniya Orkestri və Xoru, Çin Səhnə Performansları kimi bir çox sürpriz kollektiv və orkestrləri səhnələrimizdə qonaq edəcəyik...".

Mehmet Ersoy onu da diqqətə çatdırıb ki, bu il Mədəniyyət Yolu Festivalının proqramında bir çox yeniliklər nəzərdə tutulub. Dünyaca məşhur rəssam Pablo Pikassonun vəfatının 50-ci ildönümü ilə əlaqədar onun 80-dən çox orijinal əsərinin yer aldığı sərgi festival çərçivəsində 3 ay müddətində müxtəlif şəhərlərdə sənətsevərlərə təqdim ediləcək. Bununla yanaşı, Sebastiao Salqado, Frida Kahlo, eləcə də

Qeyd edək ki, 2024-cü il Türkiyə Mədəniyyət Yolu Festivalının zəngin proqramı ilə layihənin internet saytında (kulturyolufestivali.com) ətraflı tanış olmaq olar.

**V.Kamal**

# Heç görməyənlər də görə biləcəklər

## Maskın şirkəti xüsusi implant hazırlayır...

Amerikalı milyarder İlon Maskın "Neuralink" neyrotexnologiya şirkəti görmə qabiliyyətini bərpa edən xüsusi implant hazırlayır.

"Blindsight" adlı implant barədə iş adamı özünün sosial şəbəkə səhifəsində məlumat verib. Bu, "Neuralink" şirkətinin "Telepatiya"dan sonra növbəti məhsuludur.

"Telepatiya" proqramı üzrə hazırlanan mikroçiplər fiziki hərəkət imkanından tamamilə (o cümlədən anadangəlmə) məhrum olan insanlar üçün nəzərdə tutulub. Artıq insan beynində ilk sınağı keçirilən mikroçip daşıyıcısının kompüterdən istifadə etməsi mümkün olacaq. Başqa sözlə, əllərini tərpədə bilməyən insan kompüteri düşüncə gücü ilə idarə edəcək. İmplant qoyulan ilk xəstə artıq kompüterdə şahmat oynaya bilir.

"Blindsight" implantının isə anadangəlmə gün işığından məhrum olanlara belə bu imkanı yarada biləcəyi bildirilir. "Hətta insan kor doğulsa belə, biz görmə qabiliyyətini bərpa edə biləcəyimizə inanırıq", – deyə İlon Mask bildirib.

"Blindsight" beyin implantının artıq meymunlar üzərində sınaqdan keçirildiyini bildirən Mask qeyd edib ki, təsvirin keyfiyyəti ilkin mərhələdə ilk "Nintendo" konsollarında olduğu kimi aşağı ola bilər, lakin zaman keçdikcə keyfiyyət normal görmə keyfiyyətinə çatdırıla bilər.



Qeyd edək ki, "Neuralink" startapı Mask tərəfindən 2016-cı ildə yaradılıb. Şirkət insan beyninə implantasiya oluna biləcək çiplər hazırlayır.

## Xronoqraf

# Tarixdə bu gün

## Olaylar, faktlar (23 – 30 mart)

### 168 il əvvəl...

**30 mart 1856-cı ildə** Krım müharibəsinin (1853–1856) yekunlarına dair Parisdə Fransa, Prussiya, Britaniya, Türkiyə və Rusiya arasında sülh müqaviləsi imzalanıb. Müharibə nəticəsində Osmanlı və Rusiya Qara dənizdə hərbi donanma imkanlarını xeyli itirib. Osmanlı imperiyasının tərkibində Moldaviya, Valaxiya muxtariyyət alıb.

### 157 il əvvəl...

**30 mart 1867-ci ildə** Rusiya Alyaskanı ABŞ-yə satıb. Rusiya imperiyasına daxil olan Alyaska yarımadası, habelə Aleut adaları və bir sıra kiçik adalar (ümumi sahəsi 1,5 milyon kvadrat kilometr) 7,2 milyon dollar (qızılla) müqabilində ABŞ-yə verilib.

### 106 il əvvəl...

**30 mart 1918-ci ildə** Bakıda erməni-daşnak və bolşevik dəstələrinin azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınları başlayıb. Ermənilər qırğına əvvəlcədən hazırlaşmışdılar. Türkiyə cəbhəsindən geri dönən rus əsgərlər S.Şaumyanın başçılıq etdiyi "Bakı Soveti"nin sərəncamında idilər. Dünya müharibəsindən qayıdan azərbaycanlıların əksəriyyəti isə Bakı yaxınlığında tərk-silah edilmişdi.

### 81 il əvvəl...



**23 mart 1943-cü ildə** alman faşistləri Belarusun Xatın kəndində qətliam törədiblər.



Kənd əksəriyyəti qoca, qadın və uşaqlardan ibarət əhalisi ilə birlikdə yandırılıb, 149 nəfər, o cümlədən 75 uşaq qətlə yetirilib.

### 79 il əvvəl...

**27 mart 1945-ci ildə** Azərbaycan SSR Elmlər Akademiyası fəaliyyətə başlayıb. Akademiya SSRİ Xalq Komissarları Sovetinin 23 yanvar 1945-ci il tarixli qərarı ilə SSRİ EA-nın Azərbaycan Filialının bazasında təşkil olunmuşdu. SSRİ-nin müsəlman respublikaları arasında ilk EA Azərbaycanda yaranmışdı. 27 mart Azərbaycanda "Elm günü" kimi qeyd edilir.

### 77 il əvvəl...

**23 mart 1947-ci ildə** Britaniyanın Hindistan üzərində müstəmləkəsi dağılandan sonra Pakistan da müstəqilliyini elan edib. 1956-cı ildən Pakistan İslam Respublikası adlanır. Hindistanla Pakistanın ayrılması münaqişəsiz ötüşmədi, 1965 və 1971-ci illərdə iki ölkə arasında müharibə baş verdi. Münaqişəli Kəşmir məsələsi indiyədək həll edilməyib.

### 53 il əvvəl...

**26 mart 1971-ci ildə** Banqladeş Pakistandan ayrılıb. Britaniyanın müstəmləkəsi olan Banqladeş 1947-ci ildə Pakistan müstəqillik qazanarkən bu dövlətin tərkibində əyalət (Şərqi Benqaliya) idi. 1971-ci ildə referendum nəticəsində Pakistandan ayrılaraq müstəqil dövlət oldu.

### 45 il əvvəl...



**26 mart 1979-cu ildə** Vaşinqtonda (Kemp-Devid iqamətgahı) ABŞ-nin vasitəçiliyi ilə ilyarım sürən İsrail-Misir danışıqları sülh müqaviləsi ilə yekunlaşıb. İsrailin Baş naziri Menahem Beqin və Misir Prezidenti Ənvər Sədatın imzaladığı müqaviləyə ("torpaq əvəzinə sülh") əsasən, İsrail işğal etdiyi Sinay yarımadasından çəkildi, Misir də onun suverenliyini qeyd-şərtsiz tanıdı.

### 35 il əvvəl...

**26 mart 1989-cu ildə** SSRİ-də alternativlik şəraitində ilk seçki keçirilib. SSRİ Xalq Deputatları Qurultayının 2250 deputat (ərazi, milli-ərazi seçki dairələri və ictimai təşkilatlar üzrə 750 nəfər kvota) yeri uğrunda 10 min namizəd mübarizə aparıb.

### 34 il əvvəl...

**24 mart 1990-cı ildə** Azərbaycanın Qazax rayonunun Ermənistanla həmsərhəd kəndləri Ermənistan silahlı dəstələrinin hücumuna məruz qalıb. Bağanis Ayrım kəndində yeddi dinc sakin qətlə yetirilib. Həmin günlərdə rayonun Yuxarı Əskipara, Aşağı Əskipara, Məzəm kəndlərində onlarla sakin öldürülüb və yaralanıb.

**Hazırladı: V.Orxan**

# "Crocus City Hall" terrorunda ölənlərin sayı 143-ə çatıb

Moskva vilayətinin Krasnoqorsk şəhərindəki "Crocus City Hall"da martın 22-də törədilmiş terror aktı nəticəsində ölənlərin sayı 143 nəfərə çatıb. Onlardan 5-i uşaqdır. Bu barədə Rusiya İstintaq Komitəsinin məlumatında bildirilib. Həlak olanların arasında Rusiya vətəndaşı olan azərbaycanlı Hüseynov Vüqar Fuad oğlu da var.




Məlumatlara görə, 40-dan çox insan terrorçuların odlu silahdan açdıqları atəş nəticəsində ölüb, qalanlar isə konsert zalında çıxan yanğın zamanı həlak olub. Ölənlərin hələ hamısının kimliyi müəyyən edilməyib, yanmış və binanın tavanının çökməsi nəticəsində tikinti konstruksiyalarının altında qalaraq tanınmaz hala düşmüş cəsədlərin ekspertizası davam etdirilir.

Ümumilikdə terror aktı zamanı 360 nəfərin xəsarət aldığı bildirilir. Onların arasında 11 uşaq var. Rusiya Federasiyası Hökuməti sədrinin müavini Tatyana Qolikova 89 nəfərin, o cümlədən 5 uşağın müalicəsinin davam etdiyini deyib.

Xatırladaq ki, martın 22-də axşam yerli vaxtla saat 8 radələrində Moskva vilayətindəki "Crocus City Hall"a silahlı şəxslər tərəfindən hücum edilib. Binaya daxil olan terrorçular (4 nəfər olduğu bildirilir) əvvəlcə foyedə, sonra isə konsert zalında onlarla insanı güllələyib. Konsert zalına benzin dolu butulkalar atılıb və güclü yanğın başlayıb. Foyedəki atəş səslərindən sonra zaldakı tamaşaçıların əksəriyyətinin oranı tərk etməsi daha böyük qırğının qarşısını alıb. 13 min kvadratmetr sahəni əhatə edən yanğın martın 23-də söndürülüb. "Crocus City Hall"ın tavanı, üst mərtəbələri, 6 min nəfərlik tutumu olan Müslüm Maqomayev adına tamaşaçı zalı tamamilə yanıb. Binada yaradılan Müslüm Maqomayevin xatirə muzeyi də yanğının qurbanı olub.

Faciədən sonra terror aktının törədilməsində iştirak etdiyi və bu işdə bağlılığı olduğu bildirilən 10-a yaxın adam həbs olunub. Onların əksəriyyəti Rusiyada yaşayan Tacikistan əsilli vətəndaşlardır. Terror hadisəsinə görə məsuliyyəti İŞİD-in qolu olduğu bildirilən "İslam Dövləti-Xorasan" terror qruplaşması öz üzərinə götürüb.

# Hollivud filmlərinin rekvizitləri də qazanc gətirir

## "Titanik"dəki qapı 718 min dollara satılıb

"Heritage Auctions" Hollivud filmlərinin xatirə əşyalarının hərracını keçirib.

"Titanik" filminin (1997) sonunda Keyt Uinsletin qəhrəmanını (Roza) suyun üzərində saxlayan və nəticədə xilasına kömək olan qapı hərracın gedişində 718 min dollara satılıb. Lotun ilkin qiyməti 40 min dollar müəyyən edilmişdi.

"The Hollywood Reporter" xəbər verir ki, bu rekvizit "Titanik" filminin ən maraqlı səhnəsini əks etdirir. Qapının uzunluğu 2,44 metr, eni 1,04 metrdir.

Bundan əlavə, hərraca "The Shining" filmindən balta, 1984-cü ildə çəkilmiş "İndiana Cons" filmindən qamçı və "Titanik"in finalında Keyt Uinsletin əynindəki şifon paltarı daxil edilib. Sonuncu rekvizit 125 min dollara satılıb. Bu əşyaların yeni sahiblərinin adları açıqlanmayıb.

Alıcıların əldə etdikləri auksion əşyaları arasında "Kingpin"dən qırmızı qızılgüllərlə boulinq topu (350 min dollar) və "Hörümçək adam 3"dən Tobey Maguirenin qara kostyumu (125 min dollar) da var.

# Sularda qərq olan həyatlar

## Təkcə Aralıq dənizində 29 min miqrant boğulub

BMT-nin Miqrasiya Agentliyi son on il ərzində 63 mindən çox miqrant ölümünü qeydiyyata alıb. Əvvəlki illərlə müqayisədə ən çox ölüm halı 2023-cü ildə baş verib.

BMT-nin rəsmi saytında yer alan məlumata görə, son on ildə təkcə Aralıq dənizində 29 minə yaxın miqrant həlak olub. Onların əksəriyyəti qaçaq yolla gəmi və qayıqlarla Avropaya üz tutan Əfqanıstan, Myanma, Suriya və Efiopiya vətəndaşlarıdır.

Ümumilikdə miqrantlar arasında ölüm hallarının təxminən 60 faizi suda boğulma ilə bağlıdır.

"Miqrant ölümlərinin sənədləşdirilməsinin onilliyi" adlı hesabatda axtarış və xilasetmə imkanlarının gücləndirilməsinin və daha təhlükəsiz miqrasiya marşrutlarının olmasının vacibliyi vurğulanır.

Hesabatda həmçinin itkin düşənlərin ölənlər siyahısına daxil edildiyi və onların da sayının artdığı bildirilir. Məlumata görə, siyahıda yer alanların üçdə ikisindən çoxu sularda qərq olan və itkin düşmüş sayılanlardır.

"Mədəniyyət" qəzetinin kollektivi Şərqi Zəngəzur Regional Mədəniyyət İdarəsinin rəisi Rəşad Əliyevə atası, tanınmış teatr və kino aktyoru,

**Əməkdar artist Rahib Əliyevin**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 688
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641